**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN**

**ZAQATALA filialı**

**FAKÜLTƏ:** İqtisadiyyat və menecment departamenti

**BÖLMƏ:** İqtisadiyyat və idarəetmə

**İXTİSAS:** Turizm işinin təşkili

Müdafiəyə buraxılır:

«____» «_____» 2025-ci il

Bölmə rəhbəri: ______________________

**BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ**

**BURAXILIŞ İŞİ**

**MÖVZU: Azərbaycanın şimal-qərb bölgəsində dağ turizminin inkişaf perspektivləri**

**QRUP:TT1q-20**

**TƏLƏBƏ: Mahmudova Məsumə Məmmədsəfi**

**ELMİ RƏHBƏR: b.f.d., müəl. M.R.Zəngiyeva**

**ZAQATALA-2025**

# MÜNDƏRİCAT

**GİRİŞ**........................................................................................................3

**I FƏSİL. Dağ turizminin inkişafının nəzəri-konseptual əsasları**

1.1.Dağ turizmi anlayışı və onun mahiyyəti.......................................................8

1.2. Dağ turizminin sosial-iqtisadi əhəmiyyəti..................................................11

1.3.Azərbaycanın turizmin inkişafında dağ turizminin rolu...............................13

**II FƏSİL.Azərbaycanın şimal-qərb regionunda dağ turizminin mövcud vəziyyətinin təhlili**

2.1. Azərbaycanın şimal-qərb regionun dağ turizminin potensialı.....................18

2.2. Azərbaycanın şimal-qərb regionun dağ turizminin inkişafının mövcud vəziyyəti və problemləri...........................................................................................22

**III FƏSİL. Azərbaycanın şimal-qərb regionunda dağ turizminin inkişaf perspektivləri**

3.1. Azərbaycanın şimal-qərb bölgəsində yeni dağ turizm marşurutlarının yaradılması imkanları ........................................................................................27

3.2. Azərbaycanın şimal-qərb bölgəsində dağ turizminin inkişafında beynəlxalq təcrübənin tətbiqi.............................................................................................45

**NƏTİCƏ**.....................................................................................................51

**TƏKLİFLƏR**..............................................................................................

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**.........................................53

## GİRİŞ

**Mövzunun aktuallığı.** Son illər dünyada alternativ və ekoloji baxımdan davamlı turizm növlərinə marağın artması dağ turizminin inkişafını mühüm istiqamətə çevirmişdir. Dağ turizmi təkcə təbiət gözəlliklərinin müşahidəsi ilə kifayətlənmir, həm də yerli icmaların iqtisadi rifahının yüksəldilməsinə, regionların sosial-iqtisadi inkişafına və ekosistemlərin qorunmasına töhfə verir. Bu baxımdan, Azərbaycanın təbii-coğrafi xüsusiyyətləri, xüsusilə də Böyük Qafqaz dağ silsiləsinin yerləşdiyi şimal-qərb bölgəsi – Şəki, Oğuz, Qax, Zaqatala, Balakən, Qəbələ və İsmayıllı rayonları – dağ turizmi üçün yüksək potensiala malik olan ərazilər sırasındadır.

Mövzunun aktuallığı ondan irəli gəlir ki, son dövrlər regionda turizm sektorunun inkişafı dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilmiş, 2022–2026-cı illəri əhatə edən milli inkişaf strategiyasında dağ turizmi xüsusi vurğulanmışdır (Azərbaycan Respublikasının Turizm Strategiyası, 2022). Bununla belə, bu sahənin inkişafı mövcud infrastruktur, marşrutların planlaşdırılması, peşəkar kadr çatışmazlığı, ekoloji tarazlığın qorunması və beynəlxalq standartlara uyğunlaşma baxımından bir sıra problemlərlə üz-üzədir.

Tədqiqatın işlənmə dərəcəsinə gəldikdə, Azərbaycanda dağ turizmi ilə bağlı ümumi turizm strategiyalarında və bəzi elmi məqalələrdə fikirlər səsləndirilsə də, bu mövzu hələ də sistemli və dərinləşdirilmiş tədqiqata ehtiyac duyur. Xüsusilə şimal-qərb bölgəsinin spesifik potensialı, marşrutların planlaşdırılması, yerli icmaların turizmdə rolu və beynəlxalq təcrübənin tətbiqi aspektlərində araşdırmaların sayının məhdud olduğu müşahidə olunur. Beləliklə, bu mövzu həm nəzəri, həm də praktik cəhətdən araşdırılması zəruri olan elmi-tədqiqat istiqamətlərindən biridir.

**Buraxılış işinin obyekti və predmeti**. Tədqiqatın obyekti Azərbaycanın şimal-qərb bölgəsində (Şəki, Oğuz, Qax, Zaqatala, Balakən, Qəbələ və İsmayıllı rayonları) yerləşən dağlıq ərazilərdə formalaşmaqda olan turizm fəaliyyəti və bu regionda turizmin inkişafına təsir göstərən təbii, sosial, iqtisadi və institusional amillərdir. Tədqiqatın predmeti şimal-qərb bölgəsində dağ turizminin inkişafı üçün mövcud olan təbii resurslar, infrastruktur vəziyyəti, marşrutların təşkili, yerli icmaların iştirakı,

beynəlxalq təcrübənin tətbiqi, təhlükəsizlik standartları, peşəkar bələdçilik və ekoturizm imkanları ilə bağlı münasibətlərin, proseslərin və qarşılıqlı əlaqələrin elmi-praktik təhlilidir.

**Buraxılış işinin məqsəd və vəzifələri**. Bu tədqiqatın əsas məqsədi Azərbaycanın şimal-qərb bölgəsində dağ turizminin mövcud vəziyyətini təhlil etmək, bu sahədə mövcud imkanları, infrastruktur vəziyyətini və inkişaf potensialını müəyyənləşdirmək, beynəlxalq təcrübəyə əsaslanaraq regionda dağ turizminin davamlı inkişafına dair strateji istiqamətləri və tətbiq oluna biləcək modelləri irəli sürməkdir. Tədqiqatın vəzifələri aşağıdakılardan ibarətdir:

1. Şimal-qərb bölgəsinin təbii-coğrafi və sosial-iqtisadi xüsusiyyətlərini araşdırmaq və onların dağ turizmi üçün uyğunluğunu müəyyənləşdirmək;
2. Mövcud dağ turizmi infrastrukturu və marşrutlarının vəziyyətini təhlil etmək;
3. Dağ turizminin inkişafında mövcud problemləri və maneələri sistemləşdirmək;
4. Yeni marşrutların formalaşdırılması imkanlarını müəyyənləşdirmək və marşrutların planlaşdırılmasında müasir yanaşmaları əsaslandırmaq;
5. Beynəlxalq təcrübəni təhlil edərək Azərbaycanın şimal-qərb bölgəsi üçün tətbiq oluna biləcək modelləri təklif etmək;
6. Yerli icmaların dağ turizmində iştirak imkanlarını və sosial-iqtisadi təsirlərini araşdırmaq;
7. Ekoturizm, təhlükəsizlik, bələdçilik və idman turizmi kimi sahələrdə inteqrasiya imkanlarını qiymətləndirmək;
8. Tədqiqat əsasında praktik tövsiyələr və strateji təkliflər irəli sürmək.

**Buraxılış işinin metodları**. Bu elmi-tədqiqat işində kompleks yanaşma tətbiq olunmuş və aşağıdakı metodlardan istifadə edilmişdir:

1. Analitik metod – Dağ turizmi ilə bağlı mövcud elmi ədəbiyyatın, strateji sənədlərin və statistik məlumatların təhlili aparılmışdır.
2. Coğrafi metod – Şimal-qərb bölgəsinin təbii-coğrafi şəraitinin turizm baxımından qiymətləndirilməsi üçün relyef, iqlim, landşaft və bioloji müxtəliflik kimi amillər araşdırılmışdır.

3. Müqayisəli metod – Azərbaycanın dağ turizmi sahəsindəki təcrübəsi beynəlxalq modellərlə müqayisə edilərək inkişaf imkanları və məhdudiyyətlər müəyyən edilmişdir.

4. Sosioloji sorğu və müşahidə – Yerli əhali və turizm mütəxəssisləri arasında sorğular və müşahidələr aparılaraq yerli icmaların turizmə münasibəti və iştirak səviyyəsi qiymətləndirilmişdir.

5. Statistik təhlil metodu – Dövlət Statistika Komitəsi, Dövlət Turizm Agentliyi və digər mənbələrdən əldə olunan məlumatlar əsasında bölgənin turizm göstəriciləri təhlil edilmişdir.

6. Sistemləşdirmə və ümumiləşdirmə – Toplanan məlumat və nəticələr ümumiləşdirilərək dağ turizminin inkişafı üçün tövsiyələr formalaşdırılmışdır.

**Tədqiqatın informasiya bazası**. Bu tədqiqat işinin informasiya bazasını Azərbaycanın şimal-qərb bölgəsində – əsasən Şəki, Qax, Zaqatala, Balakən, Oğuz, İsmayıllı və Qəbələ rayonlarını əhatə edən dağlıq ərazilərdə dağ turizminin mövcud vəziyyəti və inkişaf perspektivləri ilə bağlı müxtəlif mənbələr və məlumatlar təşkil edir. İnformasiya bazası aşağıdakı istiqamətləri əhatə edir:

1. Normativ-hüquqi sənədlər və dövlət proqramları:

– “Azərbaycan Respublikasında turizmin inkişafına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı”;

– “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədi;

– Turizm və mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar və qanunvericilik bazası.

2. Rəsmi statistik göstəricilər və regional hesabatlar:

– Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin və Dövlət Turizm Agentliyinin regionlar üzrə illik statistik məlumatları;

– Şəki-Zaqatala iqtisadi rayonunun sosial-iqtisadi inkişaf göstəricilərinə dair rəqəmsal mənbələr və icmal sənədləri.

3. Elmi mənbələr və akademik tədqiqatlar:

– Dağ turizmi, ekoturizm və regional inkişafla bağlı elmi məqalələr, magistr və doktorantura dissertasiyaları;

– AMEA-nın Coğrafiya İnstitutu və Turizm İnstitutunun nəşrləri və tematik araşdırmaları;

– Şimal-qərb bölgəsinin təbii-coğrafi xüsusiyyətlərini, relyefini və rekreasiya potensialını əks etdirən elmi ədəbiyyat və atlaslar.

4. Beynəlxalq təşkilatların hesabatları və strateji sənədləri:

– UNWTO (Ümumdünya Turizm Təşkilatı), IUCN (Təbiətin Mühafizəsi üzrə Beynəlxalq İttifaq) və digər beynəlxalq qurumların dağ turizminin dayanıqlı inkişafı ilə bağlı tövsiyə və təhlilləri;

– Dağlıq bölgələrdə turizmin idarə olunmasına dair regional və qlobal müqayisəli təcrübə nümunələri.

5. Empirik məlumatlar və sahə araşdırmaları:

– Tədqiqat çərçivəsində aparılmış müşahidələr, marşrut xəritələrinin təhlili və fotodokumentasiya;

– Yerli icmalarla, turizm şirkətləri və bələdçilərlə aparılan sorğular və müsahibələr əsasında toplanmış empirik məlumatlar.

6. Elektron və rəqəmsal resurslar:

– Dövlət Turizm Agentliyi, Mədəniyyət Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi internet resursları;

– Açıq mənbələrdə yerləşdirilmiş GIS xəritələri, turizm marşrutlarının onlayn bazaları, otel və istirahət məkanlarına dair rəqəmsal platformalar.

**Buraxılış işinin elmi yeniliyi**. Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

1. Azərbaycanın şimal-qərb bölgəsində dağ turizminin inkişafı ilk dəfə sistemli şəkildə coğrafi, iqtisadi və sosial aspektlər üzrə kompleks şəkildə təhlil olunmuşdur.

2. Bölgədə dağ turizmi üçün əlverişli yeni marşrutların (o cümlədən Şəki, Oğuz, Qax, Zaqatala, Balakən, Qəbələ və İsmayıllı dağ zolağı üzrə) formalaşdırılması imkanları müəyyən edilmiş və bu istiqamətdə beynəlxalq təcrübənin tətbiq modelləri irəli sürülmüşdür.

3. Mövcud infrastrukturun spesifik təhlili əsasında, şimal-qərb bölgəsinin dağ turizmi üzrə klaster modeli və bu klasterin regionun sosial-iqtisadi inkişafına təsiri araşdırılmışdır.

4. İlk dəfə olaraq, yerli icmaların dağ turizminə inteqrasiyası və ekoturizm modeli çərçivəsində əhalinin məşğulluq potensialı qiymətləndirilmişdir.

5. Təhlükəsizlik, peşəkar bələdçilik və idman turizmi komponentləri əsasında bölgə üçün uyğun olan dağ turizmi strategiyası işlənib hazırlanmışdır.

**Buraxılış işinin nəzəri və praktiki əhəmiyyəti**. Buraxılış işinin nəzəri əhəmiyyəti aşağıdakılardan ibarətdir:

– Dağ turizminin inkişafı üzrə elmi əsaslar formalaşdırılmışdır.
– Yeni marşrut modelləri və klaster yanaşması nəzəri töhfə verir.
– Regionşünaslıq və coğrafi tədqiqatlar üçün baza rolunu oynayır.

Praktiki əhəmiyyəti isə bunlardır:

– Turizm strategiyalarının hazırlanmasına yardım edir.
– Yeni marşrutlar və infrastruktura dair təkliflər praktik yönümlüdür.
– Yerli icmaların cəlbi və ekoturizm modeli məşğulluğa təsir edir.
– Təhlükəsizlik və idman turizmi üzrə tövsiyələr tətbiq oluna bilər.

**Buraxılış işinin strukturu**. Buraxılış işi giriş, ayrı-ayrı paraqraflardan ibarət olan 3 fəsildən, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL.

## Dağ turizminin inkişafının nəzəri-konseptual əsasları

### 1.1.Dağ turizmi anlayışı və onun mahiyyəti

Dağlar, yalnız fiziki coğrafiyanın deyil, eyni zamanda bir sıra digər elmi sahələrin də tədqiqat obyektidir. Eyni zamanda dövlət qurumları, yerli özünüidarəetmə orqanları və milli və beynəlxalq qeyri-hökumət təşkilatları tərəfindən dağlıq ərazilərə yönəlmiş fəaliyyətlər son illərdə nəzərəçarpacaq dərəcədə artmışdır. Bu artımın əsas səbəbi, dağların Yerin səthinin dörddə birini əhatə etməsi, həssas ekosistemlərə malik olması, dünya əhalisinin təxminən 12%-nin bu ərazilərdə yaşaması, içməli su ehtiyatlarının əhəmiyyətli hissəsinin və quru ekosistemlərindəki bioloji müxtəlifliyin təqribən 25%-nin dağlarda yerləşməsidir. Bundan əlavə, qlobal turizm fəaliyyətlərinin təxminən beşdə biri məhz dağlıq ərazilərdə həyata keçirilir.

Müasir dövrdə dağların istifadəsində çoxşaxəlilik müşahidə olunur. Ənənəvi təsərrüfat formaları olan maldarlıq, toplayıcılıq, ovçuluq və əkinçiliklə yanaşı, turizm, macəra fəaliyyəti və elmi tədqiqatlar dağlıq ərazilərdə geniş yayılmışdır. Bu fəaliyyətlər, xüsusilə 18-ci əsrdə Avropada Alp dağlarına edilən qalxışlarla formalaşmağa başlayan və "dağçılıq" (alpinistlik) kimi tanınan fəaliyyət növünün inkişafına zəmin yaratmışdır. Müasir dövrdə dağçılıq həm gündəlik rekreasiya məqsədli fəaliyyət, həm də uzaq bölgələrə edilən ekspedisiyalar şəklində həyata keçirilən, uzunmüddətli və xüsusi hazırlıq tələb edən bir fəaliyyət sahəsinə çevrilmişdir.

Hazırda dağlar dünyada əsas turizm resurslarından biri hesab olunur və dağ turizmi bu ərazilərdə sürətlə inkişaf edən sahələrdən biridir. Son illərdə kütləvi turizm formasına keçid edən dağ turizmi qlobal miqyasda artmaqda davam edir. Lakin digər turizm növlərində olduğu kimi, əgər dağ turizmi də planlı şəkildə inkişaf etdirilməz və davamlılıq prinsiplərinə əsaslanmadan idarə olunarsa, bu zaman təbii və mədəni mühitin bərpası mümkün olmayan şəkildə zərər görməsi qaçınılmaz olar.

İnsanı yaşadığı ətraf mühiti tanımağa, maraq duyduğu və öyrənmək istədiyi digər bölgə və ölkələr haqqında məlumat əldə etməyə təşviq edən coğrafiya elmi, yalnız təbii hadisələr və təbiət–insan münasibətləri ilə deyil, eyni zamanda məkanın

təhlili, planlaşdırılması və təşkili baxımından da əhəmiyyət kəsb edir. Tədqiqat obyekti kimi seçilən dağlar, bu gün sadəcə morfoloji vahid olmaqdan çıxaraq – su mənbəyi, meşə, flora, qar örtüyü, təbii risk zonası, fırtına, təhlükəsizlik və etibarlılıq kimi müxtəlif fiziki və sosial funksiyaları özündə birləşdirən kompleks sistemə çevrilmişdir. Bu kontekstdə dağçılıq yalnız idman fəaliyyəti deyil, mədəniyyət, həyat tərzi, iqtisadiyyat və son dövrlərdə turizmlə əlaqəli olaraq qlobal səviyyədə paylaşımı və yönetişimi zəruri edən tədqiqat sahəsi kimi dəyərləndirilir.

Dağlar, yalnız coğrafiyanın deyil, müxtəlif elm sahələrinin, dövlət qurumlarının, yerli idarəetmələrin və qeyri-hökumət təşkilatlarının da maraq dairəsindədir. Dünyada əhalinin yarısı birbaşa və ya dolayı yolla dağ resurslarından faydalanır (Atalay, 2002). Dağlıq ərazilər adətən meşəçilik, faydalı qazıntıların hasilatı, yayla təsərrüfatı, qismən əkinçilik, yabanı təbiətin mühafizəsi, turizm və rekreasiya məqsədilə istifadə olunur (Anonim, 2011). Xüsusilə müasir dövrdə dağlar qlobal əhəmiyyət daşıyan ekoloji sistemlər kimi iqlim, su ehtiyatları, enerji, turizm və bioloji müxtəliflik baxımından da xüsusi əhəmiyyət kəsb edir (Somuncu, 2004).

Dağlar və dağlıq ərazilər tarixən çətin keçilən, əlçatmaz ərazilər kimi insan həyatında müəyyən mistik aura ilə seçilmiş, Antik dövrlərdə təhlükəsizlik baxımından sığınacaq funksiyası daşımış, bu gün isə müxtəlif məqsədlərlə milyonlarla insanı özünə cəlb edən məkanlara çevrilmişdir. Dağlarla bağlı müxtəlif elmi sahələrdə genişmiqyaslı tədqiqatlar aparılmaqdadır. Fiziki coğrafiya sahəsində bu tədqiqatlar əsasən dağların təbii mühit xüsusiyyətlərini öyrənməyə yönəldiyi halda, beşeri coğrafiya çərçivəsində iqtisadiyyat, məskunlaşma, turizm və demoqrafik məsələlər araşdırılır.

Dağlarda və dağlıq ərazilərdə həyata keçirilən turizm fəaliyyətləri fərqli adlandırılsa da, bu fəaliyyətləri baş verdiyi məkana əsasən sinifləndirdikdə onların hamısını dağ turizmi çərçivəsində qiymətləndirmək mümkündür. Etkinliklərin məzmun və məqsədinə əsasən isə ekoturizm, dağçılıq və ya idman turizmi, yayla turizmi və kənd turizmi kimi alt kateqoriyalara bölünməsi olduqca təbiidir. Bu baxımdan əsas çıxış nöqtəsi fəaliyyətin həyata keçirildiyi məkan və məqsəd olmalıdır.

Müasir dövrdə turizm baxımından inkişaf etmiş ölkələr yalnız dəniz–qum–günəş əsaslı turizm və mədəni irs sahələrinə yönəlmiş turizm növləri ilə kifayətlənmir, eyni zamanda turizm müxtəlifliyini artırmaq, mövsümi asılılığı azaltmaq və turizm sektoru üzrə məşğulluğu davamlı etmək məqsədilə dağ və qış turizmi potensialından da səmərəli şəkildə istifadə etməyə üstünlük verirlər (Nepal, 2002). ABŞ, Kanada, Avstriya, İsveçrə, Almaniya, İspaniya, Fransa, İtaliya, Yuqoslaviya və Rumıniya kimi ölkələr qış turizmi sahəsində mühüm irəliləyişlər əldə etmişdir. Yunanıstan kimi xizək üçün əlverişli sahələri məhdud olan ölkələr isə bu sahədə genişmiqyaslı investisiya və tanıtım fəaliyyətlərinə başlamışdır. Qış turizminin inkişaf etdiyi ölkələrin təcrübəsi göstərir ki, dağ və qış turizmi ilə yanaşı, qış idman növləri də əhəmiyyətli yer tutur və bu ölkələrdə qış turizmi mərkəzləri və idman infrastrukturunun inkişafı xüsusi diqqət mərkəzindədir.

**Dağ turizmi**, geniş məzmunlu bir anlayış olaraq dağlıq mühitdə istirahət, tətil və təbiət-idman fəaliyyətlərini əhatə edən turizm forması kimi xarakterizə edilir. Bu kontekstdə dağlıq ərazilərdə həyata keçirilən idman yönümlü səfərlər, yürüşlər, dırmanış və xizək kimi fəaliyyətlər xüsusi avadanlıq və qaydalara uyğun şəkildə fərdi və ya kollektiv formada yerinə yetirilir. Dağ turizmi baxımından önəm daşıyan ərazilərin tanıdılması üçün onların coğrafi mövqeyi, geoloji quruluşu, relyefi, hidrologiyası, iqlimi, nəqliyyat şəbəkəsi, yürüş və dırmanış imkanlarının təhlili zəruridir.

**Qış idman növləri və qış turizmi** də dağlıq ərazilərdə dağçılıqdan əlavə inkişaf edən mühüm sahələrdəndir. Qar və buz örtüyü olan sahələrdə həyata keçirilən fərdi və kollektiv idman növləri – buz konkisi, xizək, qızak, snoubord, komanda oyunları, motor idman növləri və onlara dair keçirilən beynəlxalq yarışlar iqtisadi cəhətdən böyük əhəmiyyətə malikdir. Lakin nəzərə almaq lazımdır ki, bütün dağlar bu növ turizm və idman fəaliyyətləri üçün uyğun deyil. Məsələn, Alp tipli xizək növləri üçün 3000 metrdən, Şimal tipli üçün isə 1650 metrdən aşağı olmayan ərazilər, yetərli uzunluq və hündürlük fərqinə, meylli yamaclara, qarın uzun müddət qalmasına, aşağı rütubətə, bol günəşli günlərə və mənzərə gözəlliyinə malik dağlar daha əlverişlidir. Həmçinin bu sahələrin sürüşmə və qar uçqunu riskindən uzaq olması, içməli və

texniki su ehtiyatlarının yetərli olması və nəqliyyat əlçatanlığının təmin edilməsi mühüm üstünlüklər sayılır.

**Təbiət idman növləri** – dağ dırmanışı, qayaya dırmanma, yürüş, oriyentasiya, mağaraya enmə, dağ velosipedi, kayak, üzgüçülük, sörf, dalğıclıq, yelkən, rafting, xizək, snoubord, paraşüt və yamaç paraşütçülüyü kimi müxtəlif istiqamətlərdə həyata keçirilir. Bu fəaliyyətlər geniş mənada açıq hava rekreasiya fəaliyyətləri, təbiət idmanları və macəra idmanları kimi təsnif oluna bilər. Sözügedən fəaliyyətlərin sayı və növləri hər keçən gün artmaqdadır.

**Ekoturizm**, təbii resursların davamlılığını təmin edən, yerli əhalinin iqtisadi inkişafına töhfə verən və sosial-mədəni dəyərlərin qorunmasına yönələn turizm yanaşması olaraq tərif edilir (Erdoğan, 2003). Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (IUCN) müəyyən etdiyi tərifə əsasən, ekoturizm – təbiət və mədəni resursların anlayış və qorunmasını təşviq edən, aşağı ziyarətçi təsiri ilə seçilən, yerli icmalara sosial-iqtisadi fayda verən, insan təsirindən nisbətən uzaq təbii ərazilərə ekoloji məsuliyyət çərçivəsində həyata keçirilən səfərlər və ziyarətlərdir. Dağ və təbiət idmanlarının əksəriyyəti bu çərçivədə ekoturizm fəaliyyətləri olaraq qiymətləndirilə bilər. Yer kürəsinin təxminən dörddə birini təşkil edən dağlıq ərazilərdə yüksəklik, iqlim, bitki örtüyü və torpaq xüsusiyyətlərinin qısa məsafələrdə dəyişməsi nəticəsində yaranan müxtəlif yaşayış mühitləri (habitatlar) zəngin biomüxtəliflik yaratmışdır və biomüxtəlifliyə əsaslanan turizm fəaliyyətləri də bu kateqoriyaya daxil edilir. Hətta bəzi tədqiqatçılar bu sahəni daha da irəli apararaq flora turizmi anlayışını da turizm ədəbiyyatına daxil etmişlər. Bu turizm növü, bioloji müxtəlifliyə artan maraqla birlikdə, onun qorunması və inkişafına yönəlmiş alternativ turizm və ekoturizm sahələrinin alt bölməsi olaraq ortaya çıxmışdır (Irmak və Yılmaz, 2011).

### 1.2. Dağ turizminin sosial-iqtisadi əhəmiyyəti

Dağ turizmi dünya üzrə beynəlxalq turist gəlişlərinin 9-16%-ni təşkil edir və təkcə 195-cu ildə 375-2019 milyon turist təşkil edir. Bununla belə, daxili dağ turizmi ilə bağlı məlumatların azlığı bu mühüm seqmentin iqtisadi, sosial və ətraf mühitə təsirlərini qiymətləndirməyi çətinləşdirir və ya hətta qeyri-mümkün edir.

Dağlarda təxminən 1.1 milyard insan yaşayır, onlardan bəziləri dünyanın ən kasıb və ən təcrid olunmuşlarıdır. Eyni zamanda, dağlar çoxdan təbiətə və açıq hava məkanlarına və gəzinti, dırmanma və qış idman növləri kimi açıq hava fəaliyyətlərinə maraq göstərən turistləri cəlb etmişdir. Onlar həmçinin zəngin biomüxtəlifliyi və canlı yerli mədəniyyətləri ilə ziyarətçiləri cəlb edir. Bununla belə, rəqəmlərin mövcud olduğu ən son il olan 2019-cu ildə ən dağlıq 10 ölkə (dəniz səviyyəsindən orta hündürlük baxımından) dünya üzrə beynəlxalq turist gəlişlərinin yalnız 8%-ni qəbul edib.

Davamlı şəkildə idarə olunan dağ turizmi yerli icmaların gəlirlərini artırmaq və onların təbii sərvətlərini və mədəniyyətlərini qorumağa kömək etmək potensialına malikdir. Və FAO-ya görə, UNWTO və MP, dağlara gələn ziyarətçilərin həcminin ölçülməsi sektorun potensialının açılması istiqamətində ilk mühüm addımdır.

Dünyanın 46 ölkəsində aparılan tədqiqatlar əsasında aparılan araşdırma göstərir ki, iqtisadi fayda əldə etmək, yerli icmalar üçün imkanlar yaratmaq və dayanıqlı məhsulların inkişafı dağ turizminin inkişafı üçün əsas motivasiyadır. Dağ turizminin davamlı inkişafı, həmçinin turizm axınının yayılmasına, mövsümiliyi aradan qaldırmağa və mövcud turist təkliflərini tamamlamağa kömək edən bir vasitə kimi müəyyən edilmişdir.

"Respublikamızın müasir inkişaf problemləri, resurs potensialının dəyişməsi, həyat səviyyəsinin yüksəldilməsi kimi proseslər turizmin regional səviyyədə aktuallığını artırır. Turizm sənayesinin inkişafı son zamanlarda insanların daha çox diqqətini cəlb etmişdir. Belə ki, ölkəmizdə neft sektorunun güman edilən yaxın gələcəkdə tükənməsini nəzərə alaraq qeyri-neft sektorunun inkişafına qoyulan sərmayənin miqdarı artmışdır. Bu da turizm sənayesinin inkişafını daha da sürətləndirmiş, bu sənayedən əldə edilən gəlirlərin artmasına təsir etmişdir. Ölkədə turizm sahəsinin inkişafı nəinki ölkənin iqtisadi qüdrətini artırmaqdan ibarətdir, eyni zamanda ölkə nüfuzunun da artmasına, dünya ölkələri içərisində tanınmasına təsir edir. Respublikamızın 5 ölkə ilə həmçinin, şərqdən Xəzər dənizi ilə həmsərhəd olması onun iqtisadi əlaqələrinə də təsir etmişdir. Əlverişli coğrafi mövqeyi, təbiətinin zənginliyi ölkəyə marağın artmasına, hər il milyonlarla turistin ölkəyə

gəlməsinə səbəb olur. Günəş şüalarının bolluğu, isti qum, gəzilməli tarixi abidələri, dağ turizm ehtiyatları, havasının təmizliyi, kurort-sanatoriya mərkəzlərinin çoxluğu və s. də öz növbəsində turistlərin respublikamıza olan marağını artırır.

Ölkəmizin coğrafi mövqeyi əlverişli olduğundan, burada turizmin inkişaf etdirilməsinə böyük şərait yaradır. Belə ki, 9 iqlim tipinin olması, Xəzər dənizi ilə həmsərhəd olması və dağlıq ölkə olması Azərbaycan Respublikasında turizmin inkişafına təsir edir. Ölkəmizdə əsasən dağ turizmi inkişaf etmişdir. Dağ turizmi inkişaf edən iqtisadi rayonlarımız şəlalələr, dağ çayları, meşəliklər, müxtəlif fauna və flora ilə zəngindir. Bununla yanaşı olaraq, bu ərazilərdə mineral və müalicə əhəmiyyətli su ehtiyatlarının olması da turistlərin diqqətini cəlb edir. Ölkəmiz təbii resurslarla zəngindir və bu resurslardan turizm məqsədilə istifadə edərək bu sahənin inkişafına əsaslı təsir etmək mümkündür.

Azərbaycanın iki qitə arasında yerləşməsinin müsbət halları kimi Avropadan Azərbaycana gələn əhalinin sayının artmasını, Avropa ölkələri ilə ticarət əlaqələrinin genişləndirilməsi və dərinləşməsi və s. misal çəkmək olar. Bunu da qeyd etmək olar ki, Bakı, Naxçıvan, Gəncədə beynəlxalq hava limanlarının olması Avropa və Asiya qitələri arasında əlverişli yükdaşıma və sərnişin daşımada tranzit rolunu oynayır. Bundan başqa, respublikamızın su sərhədlərində yerləşən ölkələrlə, eyni zamanda Xəzər dənizi vasitəsilə dünya bazarına çıxış və Qara dəniz vasitəsilə Avropaya yükdaşıması da ölkənin geosiyasi mövqeyinin əlverişliliyini əks etdirir. Belə ki, dağ turizmi dağ regionlarında qış aylarında idman, xizəksürmə və s. kimi müəssisələrin artmasına şərait yaradır. Quba, Xızı, Xaçmaz və s. kimi ərazilərdə turizmin 1-2 günlük modeli inkişaf edir. Abşeron-Qobustan iqtisadi zonasında isə dəniz turizmi daha yaxşı inkişaf etmişdir."

### 1.3.Azərbaycanın turizmin inkişafında dağ turizminin rolu

Azərbaycanda dağ turizminin inkişafı üçün təbii imkanlar mövcuddur. Çünki, respublika ərazisinin 2/3 hissəsini dağlar tutur. Hesablanmışdır ki, Azərbaycan ərazisinin 31%-i 200-1000 metr, 19,5%-i 1000-2000 metr, 6,5 %-i 2000-3000 metr

yüksəkliklər arasında, 1%-i. isə 3000 metrdən yüksəklikdə yerləşir (möhtəşəm və əzəmətli Böyük Qafqaz silsiləsi, Kiçik Qafqaz dağlan, Talış dağları və b.).

Diğər tərəfdən, dağ turizminin inkişafında ərazinin iqlim xüsusiyyətlərinin mühüm əhəmiyyəti vardır. Dağlıq ərazilərdə müalicə-sağlamlıq, istirahət, dağ-xizək turizmi məqsədilə kurort-iqlim ehtiyatları iimumi halda qiymətləndirilmişdir. Burada maraqlı cəhətlərdən biri dağlıq ərazilərdə qar örtüyünün qalınlığı və davamlılığıdır. Çünki qış turizmi üçün qar örtüyünün qalınlığı və davamlılığı mühüm şərtdir.

Böyük Qafqazın orta dağlıq qurşağında (1000-2000 m) qar örtüyünün qalınlığı 20-50 sm, yüksək dağlıq qurşaqda (2000-3000) 70 sm-dən aıtıq, cənub yamacında isə 1,5 metrə çatır. Kiçik Qafqazda ortadağlıqda bu göstərici 20-30 sm, yüksəkdağlıqda isə 40-50 sm-ə qədərdir. Naxçıvan Muxtar Respublikası və Lənkəran bölgəsinin dağlıq ərazilərində qar örtüyünün qalınlığı 20-30 sm-dir. 1300-1500 metr yüksəklikdən yuxanda yerləşən davamlı qar örtüyü zonasında maksimum qalınlığı Böyük Qafqazın cənub yamacında 1,5 metr, Kiçik Qafqazda 70-80 sm-ə çatır.

Qar örtüyü respublikamızın ovalıq və dağətəyi sahələrində dekabr və yanvarda, ortadağlıq qurşağında noyabrın başlanğıeığmda, yiiksəkdağlıq qurşaqda isə oktyabrın birindən yaranır. Qar örtüyünün tam əriməsi düzənliklərdə qışın ortalarında, dağlarda isə yüksəldiyə qalxdıqca lcecikir və yüksəkdağlıqda iyunun 1-ei ongünlüyünə təsadüf edilir. Qar örtüklü günlərin sayı dağətəyi zonada 20, orta dağlıq qurşaqda 80-120, yüksəkdağlıqda isə 160-250-dən artıqdır. Böyük Qafqazın 3900 m-dən lıiindür dağlarında qar örtüyü daim qalır. Kiçik Qafqazın yüksəkdağlıq qurşağında dağ örtüklü günlərin sayı xeyli azdır və daimi qar örtüyü isə olmur. Qış turizmi üçün Böyük və Kiçik Qafqazın ortadağlıq qurşağı əlverişlidir. Bu qurşaqda xizək yolu salmaq imkanı daha çoxdur (daimi qar örtüklü günlərin sayı 90-120 gün davam edir).

Azərbaycanın oroqrafiyası və iqliminin bəzi elementlərinə istinad edərək, qeyd edə bilərik ki, dağ-xizək turizmi üçün perspektivli rayonlardan biri Qusardır. Qusarın daxil olduğu subtropik və mülayim iqlimli Şəki-Quba zonası dağlıq ərazidə yerləşir. Bu zona dəniz səviyyəsindən 800-1000 metrədək olan dağətəyi hissəni əhatə edir. Azərbaycanın düzənlik rayonlarından fərqli olaraq burada həm rütubət, həm də temperaturun paylanmasında fərq vardır. Ortadağlıq ərazi ilə birlikdə burada iqlim və

balncoloji kurortların yaradılması üçün böyük perspektivlər vardır və landşaft şəraitinin əlverişliliyinə görə Balakən-Qəbələ və Quba-Qalaaltı rayonları xüsusilə seçilir.

Təbii-coğrafi və rekreasiya cəhətdən çox əlverişli olan Qusar rayonunda hazırda dağ turizm kompleksi yaradılmışdır və bu sahədə bəzi işlər hələ də davam etdirilir. Qusarda qış mövsümü donizsahili zonaya nisbətən soyuq keçir. Burada yanvarın orta temperaturu aşağıdır. Lakin şaxtalı havalar az olduğuna görə, həm də dənizdən əsən rütubətli havanın təsirindən qar örtüyü davamsızdır. Bu, dağ xizək turizminin inkişafında müəyyən dərəcədə maneə sayılsa da, bunun qarşısının alınması əvvəlcədən düşünülmüşdür. Belə ki, turizm kompleksinin yaradıldığı ərazinin ətrafındakı göllərdən istifadə edilir. Şahdağ Milli parkı ərazisində olan Baş Qafqaz silsiləsinə aid daimi qarlı zirvələri - Bazardüzü (4466 m), Tufandağ (4206 m), Şahdağ (4243 m), Qızılqaya (3739 m), Babadağ (3632 m) dağ - idman turizminin, alpinizmin inkişafı üçün əlverişli şərait yaradır. Təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulmuş və Azərbaycan tarixində ilk dağ-xizək kurortu olan “Şahdağ” Qış-Yay Turizm İstirahət kompleksi Qusar rayonunun mərkəzindən 30-32 km şimalda, dağlıq Alayan kəndi ərazisində Şahdağ zirvəsinin ətəyində yerləşir. Bakıdan 210 kilometr aralı məsafədədir. Kompleksin tikintisi 4 mərhələdən ibarət olmaqla tamamlanması 8-10 ilə planlaşdırılmışdır. Kompleksdə inşaat işləri yüksək standartlara uyğun olaraq həyata keçirilir. 2012- ci il 20 dekabr tarixində bir sıra obyektlərin açılışı olmuşdur. Kompleksdə “Zirvə” Otel və kiçik apart “Qaya” Otel açılmışdır. 2013-cü ilin iyun ayında 364 yerlik dörd ulduzlu “Şahdağ Resort SPA” oteli istifadəyə verilmişdir. Hazırda “Zirvə” otelində - 40 nömrə, personal üçün 3 otaq, restoranlar, bar, kafe və s. fəaliyyət göstərir. “Şahdağ” Qış-Yay turizm istirahət kompleksinə gələnlərin sayı ildən-ilə artır. 2013-cü ilin mart ayında “Şahdağ” turizm kompleksinə 50 min turistin gəldiyi qeyd edilir. Gələnlərin əksəriyyəti daxili turistlərdir. Getdikcə xarici ölkələrdən gələnlərin saymm artdığı da müşahidə edilir. Bu da ondan irəli gəlir ki, respublikamızda turizmin reklamı getdikcə genişləndirilir.

Onu da qeyd edək ki, Azərbaycan Turizm Assosiasiyası xarici tərəfdaşlarından Qusarda yerləşən Şahdağ Qış-Yay turizm kompleksinə turist səfərləri ilə bağlı müraciətlər qəbul etməyə başlamışdır. Bu müraciətlər əsasən Rusiya və MDB-nin digər ölkələrindəndir. Azərbaycanda fəaliyyət göstərən bütün turizm şirkətləri Şahdağ kompleksinə səfərlər təşkil edə bilərlər. Respublikamızda inşa olunan turizm obyektləri sırasında Şahdağ Qış-Yay turizm kompleksinin geniş perspektivləri vardır. Kompleksin fəaliyyətə başlaması ölkəmizdə dağ turizminin inkişafına və daha kütləvi xarakter almasına imkan yaradır.

Dağ turizminin inkişafı üçün perspektivli rayonlardan olan Şamaxının rekreasiya sərvətlərindən hazırda həm yay, həm də qış mövsümündə əhalinin qısa müddətli istirahətində istifadə olunur. Qış mövsümündə Pirquluya istirahətə gedənlərin (xüsusilə Bakıdan) sayı ildən-ilə artır. Bu onunla izah olunur ki, Pirqulu dəniz səviyyəsindən 800-2100 metr yüksəklikdə dağlıq sahəni əhatə edir (sahəsi 1,5 min ha). Burada yanvar ayının orta temperaturu -0,6 dərəcədən aşağı olur. Qar örtüyünün qalınlığı 50 sm, bəzən daha çox, davamlılığı isə 20-40 gün təşkil edir. Digər tərəfdən, Pirqıluda qış mövsümündə istirahət üçün şərait yaradılmışdır. Lakin dağ turizminin inkişafı üçün infrastrukturun genişləndirilməsinə, xüsusilə yolların abadlaşdırılması, turistləri yerləşdirmə, qidalanma xidmətinin yaxşılaşdırılmasına hələ də ehtiyac vardır.

Qış iqlim ehtiyatlarına görə Zaqatalanın daxil olduğu Balakən-Qəbələ rayonunu İsveçrənin məşhur Montre kurortu ilə müqayisə edirlər. Zaqatalanın iqliminin səciyyəvi xüsusiyyəti rayonda təkcə dağ xizək turizminin deyil, həm də dağ kurort istirahətinin təşkili üçün çox əlverişli olmasıdır. Bu rayonda yağıntıların əsasən yay aylarında gecə düşməsi və gündüz havaların acıq olması ətraf mühitin abu-havasım yaxşılaşdırır, rayonun kurort sərvətlərindən istifadəyə imkan yaradır.

Ümumiyyətlə, Azərbaycan Respublikasında dağ — turizm komplekslərinin yaradılması üçün geniş təbii imkanlar mövcuddur. Lakin təbii imkanların olması hələ kifayət deyildir. Dağ turizm kompleksini inkişaf etdirmək istəyiriksə, bu komplekslərdə turistlərə göstərilən xidmətlər də beynəlxalq standartlara cavab verməlidir. Yəni, dağ-turizm komplekslərində yerləşmə müəssisəsi, tibb məntəqəsi,

peşəkar təlimatçılar, bələdçilər, xizək avadanlığı kirayə verən məntəqə və s. yaradılmalıdır. Bu sahədə “Şahdağ” kompleksindəki təcrübədən yararlanmaq olar. Dağ turizm komplekslərində bu şəraitin yaradılması isə ilk növbədə kompleks, həm də böyük quruculuq işlərinin reallaşdınlmasını tələb edir. Bunlara aiddir:

-dağ turizmi üçün yararlı olan ərazilərin düzgün seçilməsi;

-dağ turizm növlərinin yerli şəraitə uyğun müəyyənləşdirilməsi;

-dağ turizm kompleksləri yaradılarkən ərazinin ekoloji vəziyyətinin öyrənilməsi və nəzərə alınması;

-dağ turizmini inkişaf etdirərkən dağlıq ərazilərdə ekosistemin qorunması;

-dağ turizm komplekslərində xidmət göstərə biləcək kadrların hazırlanması;

-infrastrukturun yaradılması;

-dağ turizm komplekslərinin yaradılmasında yerli iş adamları ilə yanaşı xarici investorların cəlb olunması və s.

# II FƏSİL.
# AZƏRBAYCANIN ŞIMAL-QƏRB REGIONUNDA DAĞ TURIZMININ MÖVCUD VƏZIYYƏTININ TƏHLILI

## 2.1. Azərbaycanın şimal-qərb regionunun dağ turizminin potensialı

Azərbaycanın şimal-qərb bölgəsi, xüsusilə Şəki-Zaqatala iqtisadi rayonuna daxil olan Şəki, Qax, Zaqatala və Balakən rayonları, təbii-coğrafi şəraitinə və əlverişli iqliminə görə dağ turizmi üçün yüksək potensiala malikdir. Bölgədə yerləşən Böyük Qafqaz dağ silsiləsi, meşəlik ərazilər, mineral bulaqlar, tarixi-mədəni abidələr və milli parklar bu regionu turizm üçün cəlbedici edir.

Bu regionda yerləşən İlisu, Car, Qum, Şəki Xan Sarayı, Kiş məbədi, Zaqatala Qoruğu və Balakəndəki dağətəyi kəndlər həm tarixi, həm də ekoloji baxımdan önəm daşıyır. Regionun təbii sərvətləri – meşələr, dağ çayları, şəlalələr və yaylaqlar yay aylarında dağ yürüşləri, at turizmi və eko-turizm üçün əlverişli şərait yaradır.

Dağ turizmi son illər dayanıqlı turizm forması kimi diqqət mərkəzindədir. Azərbaycanın şimal-qərb bölgəsi – xüsusilə Şəki-Zaqatala iqtisadi rayonu – zəngin təbii və mədəni sərvətlərə malik olduğu üçün dağ turizmi baxımından yüksək potensiala malikdir (Məmmədov, 2022).

Böyük Qafqaz dağ silsiləsinin cənub yamacında yerləşən bu bölgədə Bazardüzü (4466 m), Tufandağ (4191 m), Şahdağ və digər zirvələr alpinistlər və yürüş həvəskarları üçün böyük maraq doğurur (Əliyev, 2020). Zəngin geomorfoloji quruluş, sərt relyef və dağ dərələri ekstremal turizm imkanlarını genişləndirir (Məmmədov, 2023).

Katexçay, Balakənçay, Kişçay və digər dağ çayları boyunca rafting, kampinq və təbiət ekspedisiyaları təşkil olunur (Şəki-Zaqatala RTİ, 2024). Bölgədəki İlisu və Qalal mineral bulaqları isə sağlamlıq turizmi baxımından strateji resurs sayılır (AR ETSN, 2023).

Yay aylarında orta temperatur 18-20°C arasında dəyişir ki, bu da dağ düşərgələri və yayla turizmi üçün ideal şərait yaradır (Qasımova, 2021). Qış aylarında isə qar örtüyünün mövcudluğu qış idman növlərinin – xüsusilə xizək və snoubordun inkişafına şərait yaradır (UNESCO, 2019).

Bölgənin təxminən 50%-i meşəliklərlə örtülüdür. Zaqatala-Balakən və İlisu Dövlət Qoruqları nadir endemik və relikt növlərlə zəngindir (AR ETSN, 2023). Bu isə eko-turizm, quş müşahidəsi (birdwatching) və botanika turlarının təşkili üçün geniş imkanlar yaradır (Cəlilov, 2022).

Kiş və Kum məbədləri, Şəki Xan Sarayı, Car kəndindəki qədim yaşayış məskənləri kimi abidələr mədəni-tarixi turizm resurslarına daxildir. Turist marşrutları bu abidələrin daxil edilməsi ilə həm əyləncəli, həm də maarifləndirici xarakter daşıyır (Qasımova, 2021; UNESCO, 2019).

Azərbaycanın Şəki şəhəri zəngin tarixi-mədəni irsi, nadir memarlıq abidələri və əlverişli coğrafi-meteoroloji şəraiti ilə seçilən, Şəki-Zaqatala iqtisadi rayonuna daxil olan ən qədim yaşayış məskənlərindən biridir. Regionun çoxəsrlik tarixə malik olması burada formalaşmış memarlıq və mədəniyyət nümunələrinin müasir dövrədək qorunub saxlanmasını təmin etmişdir. Turizmin davamlı inkişafı baxımından bu abidələrin qorunması və bərpası məqsədilə müxtəlif infrastruktur layihələri icra olunmuş, dövlət büdcəsindən bu istiqamətə investisiyalar yönəldilmişdir. Tarixi irsin gələcək nəsillərə ötürülməsi və onun autentikliyinin qorunması bölgənin turizm potensialının sabitliyini təmin edən əsas amillərdəndir.

UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş Şəki Xan Sarayı şəhərin mədəni simvolu və memarlıq incisi kimi qiymətləndirilir. Bu abidə təkcə memarlıq baxımından deyil, həm də Şəkinin qədimliyini, o cümlədən xanlıqlar dövründə formalaşmış ilk inzibati mərkəzlərdən biri olduğunu sübut edən faktlardan biri kimi çıxış edir. Məşhur türk şairi Nazim Hikmətin bu saray haqqında söylədiyi "Əgər Azərbaycanın başqa tikililəri olmasaydı belə, bu nadir sənət incisini dünyaya nümayiş etdirmək bəs edərdi" fikri bu memarlıq nümunəsinin bəşəri əhəmiyyətini göstərir. Şəkiyə gələn turistlərin əsas diqqət mərkəzində olan bu abidə həm də Azərbaycanın qədim tarixinə işıq salmaqla, ölkənin beynəlxalq miqyasda tanıdılmasına mühüm töhfə verir.

Şəhərin şimalında yerləşən və tarixi XV-XVIII əsrlərə aid edilən "Gələrsən-Görərsən" qalası ilə bağlı qalıqlar bu günədək qorunub saxlanılmışdır. Yerli əhali arasında bu qala həm də "Qız" və ya "Qızlar Qalası" kimi tanınır. Tarixi ticarət

yolları üzərində yerləşən Şəki, bir vaxtlar karvanların və tacirlərin əsas dayanacaq məntəqələrindən biri olmuşdur. Bu məqsədlə inşa olunmuş XVIII əsrə aid Yuxarı və Aşağı Karvansaralar, şəhərin ticarət və iqtisadi həyatında mühüm rol oynamışdır.

Eyni zamanda, Şəkinin qədim dini mərkəz kimi tanınmasını sübut edən abidələr arasında Maflar məhəlləsində yerləşən və divar qalıqları bu günədək qalmaqda olan qədim məbəd də diqqətəlayiqdir. Şəhərdə mövcud olan müdafiə xarakterli memarlıq nümunələri də onun strateji əhəmiyyətə malik olduğunu və yüksək səviyyəli memarlıq təcrübəsinə sahib olduğunu sübut edir. Bu baxımdan Nuxa qalası xüsusi əhəmiyyət daşıyır. Şimal-şərq hissədə, dəniz səviyyəsindən xeyli yüksəklikdə yerləşən bu qala həm gözəl təbii mənzərəyə malikdir, həm də tarixi baxımdan vacib obyektlərdən biridir. Qalanın xarici divarlarının ümumi uzunluğu təxminən 1300 metr təşkil edir. Qalanın daxilində yerləşən Şəki Xan Sarayı da bu kompleksin vacib elementlərindən biridir.

Şəkidə yerləşən Şəkixanovların evi isə xalq yaşayış evindən saray tipli yaşayış formasına keçidi təcəssüm etdirən tarixi-memarlıq nümunəsidir. İki mərtəbəli, iri düzbucaqlı formaya malik bu ev dekorativ elementlərinə görə saray memarlığını xatırladır. Hər mərtəbə üç otaq və bir dəhlizdən ibarətdir.

Bundan əlavə, Şəki ərazisində dini memarlığın görkəmli nümunələri olan Xan məscidi, Giləhli məscidi, Ömər Əfəndi məscidi kimi abidələr də yer alır. Ümumilikdə, Şəkidəki abidələr yerli, ölkə və dünya əhəmiyyətli olmaqla üç əsas kateqoriyada təsnif olunur. 2016-cı ilin sonuna olan məlumata əsasən, Şəki-Zaqatala iqtisadi rayonu üzrə dövlət mühafizəsi altında olan və daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyət səviyyəsinə görə bölgüsü müvafiq cədvəldə əks etdirilmişdir.Beləliklə, cədvəldən də göründüyü kimi, Şəkidə ən çox yerli və ölkə əhəmiyyətli abidələr üstünlük təşkil edir. Bu baxımdan mədəni-tarixi abidələrin qorunması istiqamətində ölkə başçısının verdiyi fərmanlar, bu abidələrin yenidən bərpası üçün görülən tədbirlər Şəkidə turizmin davamlı inkişafında mühüm rol oynayır. Ümumi danışsaq, Şəkidə belə abiələrin çoxluğu qədimdən bu gunə kimi onların qorunub saxlanması, eləcə də gələcək nəsillərə zərərsiz vəziyyətdə ötürülməsi üçün görülən tədbirlər Şəki turizminin davamlı turizmdə əsas rol oynadığının bariz

nümunəsidir. Həmçinin yeni tikilən turizm obyektləri, turistlərin tələblərinə, ehtiyaclarına cavab verəcək turizm xidmətlərinin göstərilməsi bu sahənin inkişafında xüsusi rola malikdir.

**Cədvəl .2.1.**

**Dövlət mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyətinə görə bölgüsü**

| Şəhər və rayonlar | Dünya əhəmiyyətli | | Ölkə əhəmiyyətli və yerli əhəmiyyətli | | |
|---|---|---|---|---|---|
| | ar xeoloji | me marlıq | A rxe. | me marlıq | Bağ-park, monumental v ə xatir ə abid ələri |
| Şəki-Zaqatala rayonu | 3 | 2 | 1 63 | 22 7 | 13 |
| Balakən rayonu | - | - | 7 | 18 | 1 |
| Zaqatala rayonu | - | - | 2 2 | 84 | 2 |
| Qax rayonu | 1 | 1 | 1 7 | 47 | 2 |
| Şəki | 1 | 1 | 3 1 | 46 | 5 |
| Oğuz rayonu | - | - | 1 7 | 15 | 1 |
| Qəbələ rayonu | 1 | - | 6 9 | 17 | 2 |

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin 2017-ci il məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bölgədə yaşayan etnik qrupların (avar, saxur, lazgı, ingiloy) folkloru, kulinariyası və məişət mədəniyyəti kənd turizmini stimullaşdırır. İlisu, Qaxbaş, Qum və digər dağ kəndlərində “homestay” formatında turist qəbulu artıq formalaşmışdır (Qasımova, 2022; Şəki-Zaqatala RTİ, 2024).

Aşağıdakı cədvəl və qrafik 2024-cü ildə bölgəyə gələn turistlərin sayı və bölgələrə yönəlmiş dövlət və özəl investisiyaları əks etdirir:

**Cədvəl 2.2**

**Şimal-Qərb Regionu üzrə Dağ Turizminə dair Göstəricilər (2024)**

| region | Turist sayı (2024) | Investisiya (mln AZN) |
|---|---|---|
| Şəki | 12000 | 1.8 |
| Qax | 8500 | 1.2 |
| Zaqatala | 9800 | 1.4 |
| Balakən | 7500 | 1.0 |

**Mənbə. ADSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.**

Beləliklə, Azərbaycanın şimal-qərb regionu, dağ turizmi baxımından strateji əhəmiyyətə malikdir. Turizm infrastrukturunun gücləndirilməsi, dağ kəndlərində yaşıl turizm təşəbbüsləri və regionun beynəlxalq səviyyədə tanıdılması bu potensialın reallaşdırılmasında əsas şərtlərdir.

## 2.2. Azərbaycanın şimal-qərb regionun dağ turizminin inkişafının mövcud vəziyyəti və problemləri

Azərbaycanın şimal-qərb bölgəsində turizm sahəsinin davamlı inkişafını ləngidən bir sıra problemlərlə qarşılaşır. Bu problemlərdən ən önəmlilərindən biri turizm axınının mövsümi xarakter daşımasıdır. Yay və payız aylarında bölgədə turizm xidmətlərinə tələbat yüksək olur ki, bu da əlverişli iqlim şəraiti, rahat hava temperaturu və təbii-mədəni attraksiyaların müxtəlifliyi ilə bağlıdır. Lakin qış və yaz mövsümlərində turizm fəaliyyəti zəif inkişaf etmişdir ki, bu da bölgədə ilin bütün fəsilləri üçün dayanıqlı turizmin inkişafını məhdudlaşdırır. Məsələn, qış mövsümündə dağ-xizək turizminin inkişafı üçün infrastrukturun olmaması, yaz aylarında isə bölgəyə marağın azalması nəticəsində otel və restoranların doluluq səviyyəsinin aşağı düşməsi müşahidə olunur. Bu hal, bölgənin təbii resurslarından ilboyu səmərəli istifadəni məhdudlaşdırmaqla yanaşı, iqtisadi artım potensialını da aşağı salır.

Nəqliyyat infrastrukturunun kifayət qədər inkişaf etməməsi də bölgənin turizm potensialının reallaşmasında əsas məhdudlaşdırıcı amillərdən biridir. Azərbaycanın uzaq regionlarından və xarici ölkələrdən turistlərin bölgəyə rahat gəlişi çətinlik yaradır. Avtomobil yollarının və avtobus marşrutlarının mövcudluğuna baxmayaraq, onların keyfiyyəti və müasirliyi lazımi səviyyədə deyil. Bundan əlavə, böyük beynəlxalq hava limanları ilə birbaşa hava əlaqələrinin olmaması, eləcə də dəmir yolu bağlantılarının məhdudluğu, xüsusilə xarici turistlər üçün sürətli və rahat səfər imkanlarını məhdudlaşdırır. Bu çətinliklərin aradan qaldırılması üçün mövcud nəqliyyat infrastrukturunun modernizasiyası, eləcə də yeni nəqliyyat marşrutlarının inkişafı zəruridir.

Turizm, mehmanxana və ictimai iaşə sahələrində ixtisaslı kadrların çatışmazlığı da diqqətəlayiq problemlərdən biridir. Bölgədə xidmət sahəsində yüksək səviyyəli xidmət göstərə biləcək mütəxəssislərin çatışmazlığı müşahidə olunur. Bura bələdçilər, administratorlar, aşpazlar və digər xidmət işçiləri daxildir. Bu amil turizmin yüksək əlavə dəyər yaradan bir sahə kimi inkişafını çətinləşdirir. Bu sahədə peşəkar kurslar, ixtisasartırma proqramları və gənclərin turizm sahəsində karyera qurmağa təşviq olunması xidmət keyfiyyətinin yaxşılaşdırılmasına və regionun rəqabət qabiliyyətinin artırılmasına töhfə verə bilər.

Turist yükünün qeyri-bərabər paylanması da əhəmiyyətli problemlərdəndir. Şəki xanlarının sarayı, şəlalələr, karvansaralar kimi tanınmış attraksiyalar mövcud olsa da, turistlərin böyük hissəsi yalnız bu obyektlərə yönəlir. Bu da həmin məkanların pik mövsümlərdə yüklənməsinə və xidmət keyfiyyətinin azalmasına səbəb olur. Eyni zamanda, ucqar dağlıq ərazilər və az tanınan mədəni-təbii obyektlər turizm baxımından kifayət qədər istifadə olunmur. Bu vəziyyət bölgənin turizm potensialının qeyri-effektiv istifadəsinə və ərazilərin bərabər inkişafına mane olur. Problemin həlli üçün turist axınının balanslaşdırılması, az ziyarət olunan yerlərə çıxış imkanlarının yaxşılaşdırılması və yeni marşrutların təşkili vacibdir.

Digər mühüm məsələ isə regionun turizm potensialının yetərincə tanıdılmamasıdır. Şimal-qərb bölgəsi zəngin təbii və mədəni resurslara malik olsa da, beynəlxalq turizm bazarında bu imkanlar effektiv təqdim olunmur. Marketinq fəaliyyətlərinin zəifliyi, rəqəmsal platformalarda təmsilçiliyin olmaması və beynəlxalq sərgilərdə məhdud iştirak nəticəsində bölgənin turizm imkanları barədə məlumatlar potensial turistlərə vaxtında və effektiv şəkildə çatdırılmır. Bu problemin həlli üçün peşəkar marketinq strategiyasının hazırlanması, beynəlxalq forum və sərgilərdə fəal iştirak və onlayn satış platformalarının inkişafı önəmlidir.

Bölgədə turizm və rekreasiya fəaliyyətlərinin daha da təkmilləşdirilməsi üçün bir sıra perspektivli istiqamətlər mövcuddur:

Dağ-xizək turizminin inkişafı: Qax, Oğuz və digər yüksək dağlıq ərazilərdə müasir dağ-xizək kurortlarının yaradılması qış mövsümündə turist cəlb etmək imkanlarını artıracaq. Bu, həmçinin yeni iş yerlərinin yaradılması, mehmanxana və restoran infrastrukturunun genişlənməsi və turizm mövsümünün uzadılması baxımından əhəmiyyətlidir.

Yeni ekoloji marşrutların təşkili: Qoruqlar, milli parklar və nadir təbiət obyektlərinə ekskursiyaların təşkili ekoturizm və sərgüzəşt turizminin inkişafına, eləcə də ətraf mühitin mühafizəsinə dəstək verə bilər. Bu cür turizm həm turistləri cəlb edər, həm də davamlı inkişaf prinsiplərinin tətbiqinə şərait yaradar.

MICE turizminin (biznes turizmi) inkişafı: Beynəlxalq konfranslar, sərgilər və forumların təşkili turizm axınını artırmaqla yanaşı, bölgədə konfrans zalları və infrastrukturun genişlənməsinə də səbəb olacaq. Mədəni və əyləncəli proqramlarla

birgə təşkil olunan biznes tədbirləri Şəki-Zaqatalanı biznes turizminin mərkəzinə çevirə bilər.

Kompleks turizm məhsullarının formalaşdırılması və rəqəmsal texnologiyaların tətbiqi: Tarixi abidələrə ekskursiyalar, ənənəvi festivallarda iştirak və yerli mətbəxin dadılması kimi fərqli elementləri birləşdirən unikal turların yaradılması, turist marağını artıracaq. Onlayn rezervasiya sistemləri, virtual turlar və sosial şəbəkələrdə fəal tanıtım vasitəsilə bölgənin beynəlxalq tanınması yüksələcək və səfərlərin planlaşdırılması daha rahat və əlçatan olacaq.

Azərbaycanın şimal-qərb bölgəsi – xüsusilə Şəki, Qax, Zaqatala və Balakən rayonlarını əhatə edən sahə – unikal dağ mənzərələri, zəngin bioloji müxtəliflik, mədəni-tarixi irs və kənd təsərrüfatına əsaslanan həyat tərzi ilə dağ turizmi üçün əlverişli mühit yaradır (Əliyev, 2020). Bu regionda xüsusilə İlisu, Qalal, Car, Kiş, Mamrux və digər dağ kəndləri turistlər arasında populyarlıq qazanmaqdadır (Qasımova, 2022).

Son illərdə Dövlət Turizm Agentliyi və yerli idarələrin dəstəyi ilə dağ turizminin inkişafına yönəlmiş müxtəlif layihələr həyata keçirilmişdir. Şəki şəhəri 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş, İlisu kəndində ekoturizm və yürüş marşrutları yaradılmışdır (UNESCO, 2019). Bölgədə "Kənd Evi", "EkoTur" və "Hostel tipli turizm obyektləri"nin sayı artmışdır (Şəki-Zaqatala RTİ, 2024).

Statistikaya görə, 2023-cü ildə yalnız Şəki-Zaqatala regionuna gələn daxili turistlərin sayı 240 min nəfəri keçmişdir ki, bunların 40%-dən çoxu dağ kəndlərinə və təbiət obyektlərinə yönəlmişdir (AR Turizm Bürosu, 2023).

Azərbaycanın şimal-qərb regionunda dağ turizminin inkişafı son illərdə əhəmiyyətli dinamika nümayiş etdirmişdir. Bu inkişaf əsasən daxili turizm bazarının genişlənməsi, ekoturizm marşrutlarının formalaşması və bölgənin UNESCO statusu qazanması ilə bağlıdır.

**Cədvəl 2.3.**

**Azərbaycanın şimal-qərb bölgəsinə turist axını (2019-2023, min nəfərlə)**

| il | Daxili turist sayı | Xarici turist sayı | Ümumi turist sayı |
|---|---|---|---|
| 2019 | 198000 | 47000 | 245000 |

| | | | |
|---|---|---|---|
| 2020 | 103000 | 9000 | 112000 |
| 2021 | 155000 | 18000 | 173000 |
| 2022 | 198000 | 26000 | 224000 |
| 2023 | 243500 | 35000 | 278500 |

**Mənbə: ADSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib olunub**.

Qeyd edək ki, 2020 və 2021-ci illərdə pandemiya ilə bağlı turizm axınında ciddi azalmalar olmuşdur. 2023-cü ildə isə əvvəlki dövrləri üstələyən artım müşahidə olunmuşdur (Dövlət Turizm Agentliyi, 2024).

**Cədvəl 2.4.**

**Dağ kəndlərində yerləşmə obyektləri (2023)**

| rayon | Qonaq evləri | Hostel/otel | Yerli ev turizmi |
|---|---|---|---|
| Şəki | 65 | 14 | 112 |
| Qax | 27 | 8 | 49 |
| Zaqatala | 32 | 6 | 53 |
| Balakən | 25 | 5 | 41 |
| Cəmi | 149 | 33 | |

**Mənbə: ADSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.**

Bu rəqəmlər göstərir ki, regionda turizmin inkişafı əsasən fərdi təşəbbüslər və kənd qonaqlaması üzərində qurulub (Şəki-Zaqatala RTİ, 2024).

2023-cü il üzrə regionun iqtisadiyyatına turizmin iqtisadi təsiri aşağıdakı kimi olmuşdur:

- Turizm sektorunun ümumi dövriyyəsi: təxminən 28 milyon AZN
- Turizm fəaliyyətindən yerli gəlir: 11.2 milyon AZN
- işlə təmin olunmuş əhali: təqribən 3,800 nəfər
- Dağ turizminə yönəlmiş dövlət dəstəyi: 4.6 milyon AZN (infrastruktur və qrantlar daxil)

**Cədvəl 2.5.**

**Dağ marşrutları və təbii obyektlər üzrə ziyarət göstəriciləri (2023)**

| Obyekt/marşrut | Ziyarətçi sayı |
|---|---|
| İlisu şəlalələri | 46000 nəfər |
| Kiş kəndi və Alban məbədi | 33000 nəfər |
| Car dağ yolu marşrutu | 12500 nəfər |
| Qax dağ çayları turu | 9800 nəfər |
| Zaqatala Dövlət Qoruğu | 7200 nəfər |

**Mənbə: ADSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.**

Ziyarətlərin əsas hissəsi yay aylarında (iyun–avqust) baş verir və ekoturizm xarakteri daşıyır (AR ETSN, 2023). Bələdçi və turizm xidməti sektorunu aşağıdakı kimi təqdim etmək olar:

- Sertifikatlı yerli bələdçi sayı (region üzrə): 46 nəfər
- Lisenziyalı turoperatorlar (yerli): 23 şirkət
- Əlavə qeydiyyatsız fəaliyyət göstərən ev sahibkarları: təqribən 300+

Göründüyü kimi, bu statistik göstəricilər dağ turizminin regionda iqtisadi və sosial baxımdan mühüm rol oynadığını göstərir. Lakin eyni zamanda qeyri-formal sektorun genişliyi, turizm idarəetməsində normativ boşluqlar və təlimli personal çatışmazlığı da sistemli yanaşmanın zəruriliyini ortaya qoyur.

Azərbaycanın şimal-qərb regionu – xüsusilə Şəki, Qax, Zaqatala və Balakən rayonları – zəngin təbii resurslara, unikal dağ relyefinə və qədim mədəni irsə malik olması ilə ölkənin dağ turizmi potensialının əsas mərkəzlərindən biri kimi çıxış edir. Son illərin statistik göstəriciləri bu regionda turizm sahəsində müsbət dinamikanın müşahidə olunduğunu, həm daxili, həm də xarici turist axınında artımın qeydə alındığını göstərir. Eyni zamanda kənd qonaqlaması, ekoturizm və dağ yürüşləri kimi alternativ turizm növlərinin inkişafı regionda sosial-iqtisadi fəallığın artmasına səbəb olmuşdur.

Bununla belə, turizm infrastrukturunun bərabər inkişaf etməməsi, dağ yollarının texniki vəziyyəti, peşəkar bələdçi və turizm personalının çatışmazlığı, eləcə də marketinq strategiyalarının zəifliyi bu sahədə ciddi problemlər olaraq qalır. Qeyri-rəsmi fəaliyyət göstərən sahibkarlıq subyektləri və turizm xidmətlərinin keyfiyyətindəki fərqlər də sektorun sistemli inkişafına maneə yaradır.

Nəticə etibarilə, regionun dağ turizmi potensialının tam reallaşdırılması üçün dövlət dəstəyi, yerli icmaların fəal iştirakı və özəl sektorun investisiya maraqları arasında effektiv koordinasiyanın qurulması vacibdir. Elmi əsaslara söykənən planlaşdırma, turizm marşrutlarının sertifikatlaşdırılması, ekoloji davamlılıq prinsiplərinə əməl olunması və regionun brend turizm istiqaməti kimi tanıdılması bu sahənin uzunmüddətli inkişafını təmin edə bilər.

# III FƏSİL. Azərbaycanın şimal-qərb regionunda dağ turizminin inkişaf perspektivləri

## 3.1. Azərbaycanın şimal-qərb bölgəsində yeni dağ turizm marşurutlarının yaradılması imkanları

Turizm sektoru müasir dövrdə dünya iqtisadiyyatının dinamik inkişaf edən və sosial-iqtisadi sabitliyə təsir göstərən sahələrindən biri kimi çıxış edir. Xüsusilə, ekoloji cəhətdən təmiz, mövsümi dəyişkənliyə uyğun və yerli icmaları əhatə edən turizm növləri – o cümlədən dağ turizmi – hazırkı dövrdə böyük aktuallıq kəsb edir. Bu kontekstdə Azərbaycan Respublikasının coğrafi mövqeyi, müxtəlif relyef formaları və iqlim tipləri onun turizm resurs potensialını əhəmiyyətli dərəcədə artırır (Əliyev, 2022). Ölkənin dağlıq regionları, xüsusən də şimal-qərb iqtisadi-coğrafi bölgəsi, bu sahədə xüsusi strateji əhəmiyyətə malikdir.

Şəki-Zaqatala iqtisadi rayonu kimi tanınan bu bölgə — Qax, Zaqatala, Balakən, Şəki və Oğuz inzibati rayonlarını əhatə etməklə — yüksək dağlıq relyef, çay dərələri, meşə massivləri, alp çəmənlikləri və unikal biomüxtəliflik kimi turizm resurslarına sahibdir. Bununla yanaşı, regionun qədim mədəni irsi, yerli etnik icmaların zəngin folkloru, milli memarlıq abidələri və əl sənətləri ənənələri də dağ turizmi ilə mədəni turizmin sintezini təmin edir (Quliyev, 2021). Hazırda regionda əsasən yürüş (trekking), kənd həyatı ilə tanışlıq, təbiət müşahidəsi və ekspedisiya yönümlü marşrutlar mövcud olsa da, bu imkanlar hələ tam reallaşdırılmayıb və ciddi şəkildə planlaşdırılmış yeni marşrutlara ehtiyac duyulur.

Cənubi Qafqazda ilk olaraq yaradılacaq Zaqatala-Balakən biosfer qoruğu həmin bölgədə ekoturizmin inkişafına və yerli əhalinin məşğulluğunun artırılmasına şərait

yaradacaq, insanların flora və faunaya zərər vermədən təbiət gözəlliklərini görməsi üçün hərəkət çığırları, seyir nöqtələri müəyyənləşdiriləcək. Qoruğun ərazisinə ekoturistlərin girişi açıq olacaq. Qoruq alternativ və bərpa olunan enerji mənbələri ilə təmin olunacaq. Eyni zamanda, burada ekoloji təmiz məhsulların istehsalı üçün təsərrüfat yaradılacaq. Həmçinin, layihə çərçivəsində ətraf ərazilərdə təsərrüfat fəaliyyəti ilə məşğul olan şəxslərə kiçik həcmli qrantların verilməsi də planlaşdırılır.

Bununla da bölgədə ekoloji və kənd turizminin stimullaşdırılmasına, əhalinin sosial-iqtisadi rifahının yüksəldilməsinə şərait yaranacaq. Biosfer rezervatda müasir tələblərə cavab verən infrastruktur qurulacaq, alternativ və bərpa olunan enerji mənbələri ilə təmin olunacaq. “Biosfer rezervatın özəlliklərindən biri də odur ki, burada istehsal olunan orqanik məhsullar qoruğun loqosu ilə qablaşdırılacaq və bir sıra ölkələrə ixrac olunan zaman gömrük rüsumundan azad olunacaq.

**Tövsiyə edilən ekoloji cığırlar.**

Bu cığırlar, həm təbiətsevərlər, həm də ekoturizm maraqlılarına unikal təcrübələr təqdim edir.Yeni ekoloji marşrutların yaradılması da region üçün əhəmiyyətli bir potensial təşkil edir. Tədqiq olunmamış təbiət guşələrinin araşdırılmasına yönəlmiş ekoloji və macəra turlarının inkişafı təkcə ekoturizmlə maraqlanan turistlərin cəlb olunmasına deyil, həm də ətraf mühitin qorunmasına töhfə verəcək. Ekoloji marşrutlara milli parkların, qoruqların, unikal təbiət obyektlərinin ziyarəti, eləcə də dayanıqlı turizm təcrübələri daxil ola bilər ki, bu da təbii resursların qorunmasına və ekoloji cəhətdən təmiz regionlara marağın artmasına xidmət edəcək.

Ekoloji cığır yaradılarkən aşağıdakı məqamlar nəzərə alınmalıdır: yerin seçilməsi, marşrutun hazırlanması, cığırın təchizatı və ekoloji cığırın vəziyyətinə nəzarət. Ekoloji cığırın əsas keyfiyyəti — onun informativliyidir, bu isə tipikliklə unikallığın vəhdətində özünü göstərməlidir. Arzuolunandır ki, ekoloji cığır elə bir marşrut üzrə çəkilsin ki, burada müxtəlif təbii landşaftları nümayiş etdirmək mümkün olsun, o cümlədən antropogen landşaftları da. Belə sahələrdə ziyarətçilərə təbiətə düzgün olmayan torpaq istifadə üsullarının təsiri haqqında danışmaq və göstərmək olar. Məsələn, yamacların şumlanması, torpağın eroziyası, otlaqların həddən artıq istifadə olunması kimi hallar.

Ekoloji marşrut hazırlanarkən cığırın dəqiq trayektoriyası müəyyənləşdirilməli, dayanacaqlar üçün yerlər seçilməli və kompleks təsvir hazırlanmalıdır. Bu təsvirlər əsasında ekoloji cığır üzrə bukletlər və ya bələdçilər hazırlanması tövsiyə olunur. Bukletlər həm rəngli və şəkillərlə bəzədilmiş, həm də tək rəngdə ola bilər, lakin mütləq yığcam mətn, marşrutun sxemi və ekoloji cığırda davranış qaydaları ilə təmin olunmalıdır.

Ekoloji cığır üzərindəki lövhələr və stendlər üç növə bölünə bilər:
– Maarifləndirici (ətraf mühit obyektləri haqqında məlumat verir);
– İnstruktiv (cığırda davranış qaydaları);

– Emosional (şeirlər, çağırışlar, aforizmlər və təbiəti qoruma mövzusunda müdrik fikirlər ehtiva edir).

İnstruktiv mətnlərə misal olaraq, "Qadağandır...", "Çiçəkləri qoparmayın!", "Zibil atmayın!" kimi sərt ifadələr əvəzinə belə mehriban tərzdə ifadələr işlətmək olar:
– "Çiçəkləri qoparmadığınız, tonqal yandırmadığınız, quş yuvalarını dağıtmadığınız üçün Sizə təşəkkür edirik!"
– "Gözəl xatirələr toplayın, amma çiçəkləri qoparmayın!"
– "Əgər yolunuza bir heyvan çıxdısa, onu qorxutmayın, ona böyük qardaş kimi yanaşın."
– "Cığırda ayaq izlərinizdən başqa heç nə qoymayın."
– "Səssiz olun, dağların səsini dinləyin.( АСИ, 2021).

Bu bölgədə ekoturizmin inkişafı üçün bir neçə tövsiyə edilən ekoloji cığır mövcuddur.

**PASPORT**

**Turist-ekskursiya marşrutu №1**

Marşrutun adı: «Katex şəlaləsi»-Zaqatala rayonu
Marşrutun uzunluğu: 3,5 km
Marşrutun keçilmə vaxtı: 3 saat
Marşrutun istifadə mövsümü: yaz – yay – payız
Cığır üzrə icazə verilən maksimum yük: Eyni zamanda – 2 qrup, hər birində ən çoxu 15 nəfər. Gündəlik – 4 qrupdan artıq olmamalıdır.

**Marşrutun qısa təsviri:** Marşrut Qəbizdərə kəndindəki avtobus dayanacağından başlayır. Marşrut Katexçay çayının sol sahili boyunca meşə təsərrüfatının ərazisindən keçərək,qoruğun Car sahəsinin mühahfizə işçilərin sığınacaq evinə qədər davam edir. Buradan meşə cığırı ilə Katex şəlaləsinin( hündürlüyü 20m) müşahidə meydançasına rmi davam edir. Geri dönüş eyni marşrut üzrə həyata keçirilir – mühafizə işçilərin sığınacaq evi , meşə təsərrüfatı ərazisi və Qəbizdərə kəndi.

**Marşrut №1 üzrə diqqətəlayiq (gözəcarpan,əhəmiyyətli) obyektlər**

**1. Antropogen obyektlər:**

- XX əsrin əvvəllərində inşa edilmiş qüllə quruluşu.
- Yolun hər iki tərəfində yerləşən restoranlar, kafelər, istirahət üçün icarəyə verilən evlər
- Meşə təsərrüfatı və qoruq sərhədində yerləşən arıçılıq təsərrüfatı – burada bal arıları üçün xüsusi hazırlanmış arıxanalar var (arıçılıq inkişaf edib)

**2. Landşaft obyektləri:**

- Dağətəyi hissədə əhəngdaşı və tünd-boz rəngli gil şistlərinin (üçüncü dövrə aid) çöküntüləri.
- Yolun sağ tərəfində qaya çıxıntıları.
- Maceh və Qəbizdərə kəndləri arasında sərhəddə torpaq bəndi üzərindəki sərt döngə.
- Katexçay çayının vadisinə və qarşı yamaclara açılan mənzərə.
- Cığır meşəyə doğru davam edir: qısa axarlı bir çayın və kəndalaş kollarının müşayiəti ilə fıstıq və fıstıq-cökə meşələri yerləşir.
- Katex şəlaləsi 20 metr hündürlükdən axan suyu ilə təbiətsevərləri valeh edir.

**3. Bitki örtüyü:**

- Meşə təsərrüfatı ərazisində qurumuş şabalıd və qoz ağaclarına rast gəlinir
- Aşağı meşə qurşağında iberiya palıdı, qarağac, cökə, şabalıd, ağcaqayın, fıstıq, fıstıqvari ağaclar, müxtəlif ağcaqayın növləri və çoxsaylı kol bitkiləri (fındıq, alça, zoğal, , böyürtkən və s.)
- Kordonun yaxınlığında, Katexçaya tökülən çay boyunca uzanan paulovniya ağaclarının plantasiyası yerləşir

**4. Onurğalı heyvanlar:**

- Nəcib maral, ceyran, vəhşi donuz, sincab, qonur ayı, canavar, çaqqal, vaşaq və digər növlər

## TURİSTİK EKSKURSİYA MARŞRUTU №2 PASPORTU

Marşrutun adı: «Çayqarışan» Balakən rayonu.
Marşrutun uzunluğu: 3,5 km
Marşrutun keçilmə vaxtı: 3 saat
Marşrutun istifadə mövsümü: yaz – yay – payız
İzin verilən maksimum yük: eyni anda 2 qrupa qədər, hər biri 15 nəfəri keçməməlidir. Gün ərzində maksimum 4 qrup.

Marşrutun qısa təsviri:
Marşrut Katex kəndinin Kombinat yaşayış məntəqəsindən başlayır, şimal istiqamətində Katexçay çayının sağ sahili boyunca qoruğun kordonu (mühafizə işçilərin sığınacaq evi) istiqamətində qalxır; buradan isə Meşəgil dağı – Dolçebel dağı– Mavrovdağı istiqamətində meşə ilə yuxarı qalxır.

**№2 marşrut üzrə diqqətəlayiq obyektlər:**

1. **Antropogen:** Katexçay yolu boyunca, sağ tərəfdə eramızın VII əsrinə aid iki tarixi qüllə yerləşir. “Kombinat” adlanan yer əvvəlki ağac emalı kombinatının yerləşdiyi ərazidir, burada kombinat işçiləri yaşayırdılar.
2. **Landşaft:** Katexçay çayının yatağına baxış və çayın o biri tərəfindəki Verketel silsiləsinə mənzərə.
3. **Bitkilər:** Aşağı meşə qurşağında tez-tez rast gəlinən ağac növləri: İberiya palıdı, vələs, cökə, şabalıd, göyrüc, fıstıq, müxtəlif ağcaqayın növləri və çoxlu sayda kolluqlar (fındıq, alça, zoğal, yemişan, böyürtkən, əzgil və digər). Orta meşə qurşağında əsasən fıstıq meşələri üstünlük təşkil edir.
4. **Onurğalı heyvanlar:** nəcib maral, ceyran, vəhşi donuz, sincab, qonur ayı, canavar, çaqqal, vaşaq və başqaları.

## TURİSTİK EKSKURSİYA MARŞRUTU №3 PASPORTU

Marşrutun adı: «Çedər» Balakən rayonu.
Marşrutun uzunluğu: 3,5 km
Marşrutun keçilmə vaxtı: 3 saat
İstifadə mövsümü: yaz – yay – payız
İcazə verilən maksimum yük: eyni anda 2 qrupa qədər, hər biri maksimum 15 nəfər. Gün ərzində maksimum 4 qrup.

Marşrutun qısa təsviri:
Katex kəndinin Kombinat yaşayış məntəqəsindən başlayır: Çedər – Məsədəgel – Doojbel – Taxtalar istiqamətində davam edir. Gediş-gəliş eyni cığırla həyata keçirilir.

**№3 marşrut üzrə diqqətəlayiq obyektlər:**

1. **Antropogen:** Katexçay yolu boyunca sağ tərəfdə eramızın VII əsrinə aid iki tarixi qüllə yerləşir. Kombinat – əvvəllər ağac emalı kombinatı olmuşdur. Tərk edilmiş Çedər kəndi – daşnan tikilmiş evlər. Yol boyunca qədim kənd qəbiristanlığı və tək-tək qədim başdaşıları mövcuddur.
2. **Landşaft:** Çedər dağ silsiləsi ilə qalxış zamanı – sol tərəfdə Miklikançay çayı, sağ tərəfdə isə Çedərçay çayı axır.
3. **Bitkilər:** Aşağı meşə qurşağında tez-tez rast gəlinən ağac növləri: İberiya palıdı, vələs, cökə, şabalıd, göyrüc, fıstıq, müxtəlif ağcaqayın növləri və çoxlu sayda kolluqlar (fındıq, alça, zoğal, yemişan, böyürtkən, əzgil və digər). Qoz plantasiyası və Eldar şamı da rast gəlinir.
4. **Onurğalı heyvanlar:** maral, ceyran, vəhşi donuz, qonur ayı, çaqqal, yenot, kirpi, porsuq, boz canavar və başqaları.

**Nəticə**. Zaqatala və Balakən rayonlarının ekoturizm potensialı yüksəkdir və bu potensialın reallaşdırılmasında elmi-akademik təşəbbüslər mühüm rol oynayır. Tədqiqat göstərir ki, bu bölgənin zəngin təbii və mədəni irsi, əlverişli iqlim şəraiti,

flora və faunanın müxtəlifliyi onu ekoturizm üçün ideal məkana çevirir. Ekoturizm marşrutlarının (ekoloji cığırların) layihələndirilməsi və təchiz olunması, marşrutlar üzrə informasiya və infrastruktur təminatının yaradılması həm turistlərin məmnuniyyətini artırır, həm də ətraf mühitin qorunmasına töhfə verir.

Zaqatala–Balakən Biosfer Qoruğunun yaradılması, bu regionda ekoloji turizmin inkişafı üçün strateji əhəmiyyət daşıyır və beynəlxalq səviyyədə tanınma potensialına malikdir. Qoruqda həyata keçiriləcək akademik təşəbbüslər – elmi əsaslı marşrutların qurulması, monitorinq sistemlərinin yaradılması, maarifləndirici və bələdçi materialların hazırlanması – ekoturizmin dayanıqlı inkişafını təmin edəcək. Bu təşəbbüslər həmçinin yerli icmalar üçün məşğulluq imkanlarını genişləndirəcək, ekoloji maarifləndirmə səviyyəsini artıracaq və təbiətin mühafizəsinə yönəlmiş ictimai şüurun formalaşmasına xidmət edəcəkdir.

Nəticə etibarilə, ekoturizm infrastrukturunun akademik və elmi yanaşmalar əsasında qurulması Zaqatala və Balakən rayonlarında turizm sektorunun səmərəli inkişafını təmin edə bilər. Bu isə həm regionun sosial-iqtisadi inkişafına, həm də milli və beynəlxalq səviyyədə ekoloji dəyərlərin qorunmasına ciddi töhfə verəcəkdir.(Zəngiyeva M.2025)

Dünya Turizm Təşkilatının məlumatına görə, dağ turizminə olan tələbat ilbəil artır və bu sahənin dayanıqlı turizm inkişafında rolu xüsusi qeyd olunur (UNWTO, 2021). Bu baxımdan, Azərbaycanın şimal-qərb bölgəsində ekoloji və mədəni əsaslara söykənən, rəqəmsal və fiziki infrastrukturla dəstəklənmiş yeni dağ marşrutlarının formalaşdırılması turizm sektorunun şaxələndirilməsinə və regionun sosial-iqtisadi inkişafına töhfə verə bilər.

Azərbaycanın şimal-qərb bölgəsində dağ turizminin inkişafı üçün əsaslı təbii-coğrafi resurslar mövcud olsa da, bu potensialı reallaşdırmaq üçün infrastruktur təminatı hələ də qeyri-bərabər və natamam xarakter daşıyır. Regionda dağ turizminə xidmət edəcək yolların, ictimai nəqliyyatın, rabitə xidmətlərinin, turizm informasiya mərkəzlərinin, eləcə də ekoloji və təhlükəsizlik infrastrukturunun səviyyəsi müxtəlif rayonlarda fərqli şəkildə inkişaf etmişdir.

İlk növbədə, nəqliyyat infrastrukturu məsələsinə diqqət yetirmək vacibdir. Şəki, Qax və Oğuz rayonlarına gedən əsas yollar asfaltlanmış və nisbətən qənaətbəxş vəziyyətdə olsa da, yüksək dağlıq ərazilərə – məsələn, İlisu (Qax), Car (Zaqatala), Lahıcay (Balakən) və Qəbələ dağ massivlərinə – çıxışı təmin edən yollarda texniki və

hava şəraitindən asılı olaraq keçilməzlik problemi qalmaqdadır. Bu isə dağ turizminin mövsümi məhdudiyyətlərlə inkişafına səbəb olur (Məmmədov, 2021). Yerli bələdiyyələrin hesabatlarına əsasən, 2023-cü ilə qədər regionda dağlıq ərazilərə çıxan yolların yalnız 38%-i təmir olunmuşdur (ARDDA, 2023).

İctimai nəqliyyat və informasiya infrastrukturu baxımından da ciddi boşluqlar mövcuddur. Şəki-Zaqatala bölgəsində bəzi kəndlərə müntəzəm marşrut xətləri fəaliyyət göstərsə də, turistlərin dağlıq zonalara çatması üçün əlverişli və çevik nəqliyyat vasitələri mövcud deyil. Bu isə fərdi turistlər və ya kiçik qruplar üçün dağ marşrutlarının planlaşdırılmasında çətinlik yaradır. Həmçinin bölgədə turizm informasiya mərkəzlərinin sayı məhduddur – yalnız Şəki və Qəbələ kimi iri turizm mərkəzlərində bu tip ofislər fəaliyyət göstərir (DTA, 2022).

Yerləşmə və qonaqlama infrastrukturu isə əsasən şəhər mərkəzləri və turistik kəndlərdə cəmlənmişdir. Dağ marşrutları üzərində yerləşən kəndlərdə çox nadir hallarda rəsmi qeydiyyatdan keçmiş mehmanxana və ya hostellərə rast gəlinir. Bu baxımdan, yerli sakinlərin evlərində turistləri qəbul etməsi (homestay formatı) alternativ kimi çıxış etsə də, bu xidmətlərin standartlaşdırılması və keyfiyyət nəzarəti məsələləri aktuallığını saxlayır (Quliyev, 2022).

Təhlükəsizlik və ekoloji infrastruktur da turizm fəaliyyətlərinin dayanıqlı şəkildə təşkili baxımından xüsusi əhəmiyyət kəsb edir. Dağlıq ərazilərdə xilasetmə xidməti və təcili tibbi yardım sistemləri yalnız əsas magistral yollar ətrafında mövcuddur, daha ucqar yerlərdə isə bu xidmətlər faktiki olaraq əlçatmazdır. Eyni zamanda, turizm zonalarında tullantıların idarə olunması sistemi və ətraf mühitin qorunması ilə bağlı tədbirlərin yetərli səviyyədə təşkil olunmaması ekoloji davamlılıq üçün risk faktoru yaradır (UNDP, 2023).

Bununla yanaşı, rəqəmsal infrastruktur, yəni mobil rabitə və internet bağlantısı da dağ turizmi üçün önəmlidir. Şimal-qərb bölgəsinin əksər kəndlərində mobil internet zəif və ya mövcud deyil, dağlıq ərazilərdə isə bağlantı ümumiyyətlə yoxdur. Bu isə turistlərin təhlükəsizliyi, onlayn marşrut izləmə və təcili yardım çağırışı baxımından ciddi çatışmazlıq hesab edilir.

Azərbaycanın şimal-qərb bölgəsində yeni dağ turizm marşrutlarının formalaşdırılması, mövcud təbii-coğrafi resurslar, etnik-mədəni zənginlik və sosial-iqtisadi ehtiyaclar kontekstində olduqca perspektivlidir. Regionda yeni marşrutların yaradılması həm ekoloji turizmin, həm də yerli iqtisadiyyatın inkişafı üçün mühüm imkanlar açır. Bu imkanlar əsasən aşağıdakı istiqamətlərdə təhlil oluna bilər:

1. Təbii-coğrafi imkanlar və mövcud landşaftlar. Şəki-Zaqatala bölgəsi Böyük Qafqaz dağ silsiləsinin cənub yamaclarını əhatə edir. Ərazidə hündürlüyü 2000 metrdən yuxarı olan dağlar (Murovdağ, Tufandağ, Qaraçay silsiləsi və s.), meşə massivləri, dağ çayları, şəlalələr (İlisu, Qaxbaş şəlaləsi), həmçinin alp və subalp çəmənlikləri mövcuddur (Məmmədov, 2023). Bu resurslar dağ yürüşləri (trekking), təbiət müşahidəsi (birdwatching), dağ velosipedi turları və ekspedisiyalar üçün əlverişli şərait yaradır.

2. Mövcud kəndlərarası yollar və keçidlər. Mövcud kəndlərarası yolların və yaylaq keçidlərinin marşrutlaşdırılması yeni turların formalaşdırılması üçün təməl ola bilər. Məsələn:

- İlisu (Qax) – Sarıbaş (Şəki) – Lahıcay (Balakən) xətti boyunca yürüş marşrutu yaradılaraq dağ mənzərələri, meşə və çay yataqları boyunca turlar təşkil oluna bilər;
- Qum (Zaqatala) – Katex – Mazımçay vadisi boyu marşrut isə həm ekoloji, həm də etnoqrafik səciyyə daşıya bilər;
- Tufandağ (Qəbələ) ətrafında dağ velosipedi və qış alpin turizmi üçün fərqli səviyyəli yeni zolaqlar salına bilər.

Bu istiqamətlərdə yay mövsümündə yaylaq turizmi, qış mövsümündə isə qış yürüşləri, qar idman növləri (xizək, snoubord) üzrə marşrutlar təşkil oluna bilər (DTA, 2023).

3. Etnoqrafik və mədəni resurslara əsaslanan marşrutlar. Şimal-qərb bölgəsində dağ kəndlərində hələ də qorunub saxlanılan etnik-mədəni elementlər (avarlılar, saxurlar, ingiloylar və s.) yeni marşrutların formalaşmasında mühüm rol oynaya bilər. Bu kəndlərdə xalçaçılıq, ağac oymaçılığı, milli musiqi alətləri, kulinariya nümunələri və yerli toy adətləri turistlər üçün mədəni marşrutların təşkilinə imkan verir. Qum,

İlisu, Car, Göynük və Qımır kəndləri bu baxımdan mədəni-turistik turlar üçün idealdır (Əliyev, 2022).

4. Kənd turizmi ilə inteqrasiya. Yeni dağ marşrutları, kənd turizmi ilə inteqrasiya olunmaqla "evdə qal" (homestay) formatında turist qəbulunu təşviq edə bilər. Bu, həm də yerli əhalinin turizmdən gəlir əldə etməsinə şərait yaradar. Qax və Zaqatala rayonlarında bu praktika artıq qismən mövcuddur və genişləndirilə bilər (UNDP, 2023).

5. Rəqəmsallaşma və turizm informasiya sistemlərinin tətbiqi. Yeni marşrutların effektiv təşkili üçün GPS əsasında rəqəmsal xəritələrin hazırlanması, mobil tətbiqlərin yaradılması və virtual turların təklif edilməsi zəruridir. Bu həm təhlükəsizliyi təmin edər, həm də marşrutların daha cəlbedici formada təqdim olunmasına kömək edər.

6. İnfrastruktur və dəstək mexanizmləri. Yeni marşrutlar yaradılarkən aşağıdakı infrastruktur və xidmətlərin dəstəyi vacibdir:

- Yolların və keçidlərin (yürüş yolları, dağ zolaqları) nişanlanması və xəritələnməsi;
- Göstərici lövhələr, təhlükəsizlik stansiyaları və mobil rabitə məntəqələri;
- Yerli bələdçilərin və ekoturizm mütəxəssislərinin hazırlanması;
- Ekoloji düşərgə sahələrinin yaradılması.

**Cədvəl 3.1.**

**Yeni marşrutların əhatə dairəsi və potensialı (təklif olunan istiqamətlər)**

| Marşrutun adı | Rayonlar | Marşrutun uzunluğu | Turizm növü | Mövsüm |
|---|---|---|---|---|
| İlisu-Sarıbaş-Lahıcay | Qax-Şəki-Balakən | 38 km. | Trekking,foto-tur | Yaz-payız |
| Qum-Mazımçay-Katex | Zaqatala | 24 km. | Mədəni, yürüş | Yaz-yay |
| Tufandağ alp | Qəbələ | 15 km. | Qış idmanları | Qış |

| | | | | |
|---|---|---|---|---|
| parkı | | | | |
| Göynük-Qımır-Oxud | Şəki -Qax | 20 km. | Etnoqrafik tur | Yay-payız |

**Mənbə: müəllif tərəfindən aparılan tədqiqatlar nəticəsində tərtib olunub**.

İsmayıllı – Lahıc turizm marşrutu üzrə sadə və informativ turizm cədvəli aşağıdakı kimidir:

**Cədvəl 3.2.**

**İsmayıllı-Lahıc turizm marşrutu**

| Marşrut məntəqəsi | Məsafə (km) | Orta müddət (dəq/saat) | Fəaliyyət/Tövsiyə |
|---|---|---|---|
| İsmayıllı şəhəri | 0 | 0 | Səfərin başlanğıcı |
| Talıstan kəndi | 10 | 15 dəq. | Qısa dayanacaq, kənd həyatı müşahidəsi |
| Zərnava kəndi | 10 | 15 dəq. | Təbii mənzərələr, meşəlik ərazi |
| Lahıc yol ayrıcı | 5 | 10 dəq. | Dağlıq relyef başlayır |
| Lahıc qəsəbəsi | 15 | 30 dəq. | Tarixi məkanlar, misgərlik sənəti, suvenir alış-verişi |

**Mənbə: müəllif tərəfindən aparılan tədqiqatlar nəticəsində tərtib olunub**.

Əlavə Məlumatlar:

- Ümumi məsafə: təxminən 40 km
- Ümumi vaxt (nəqliyyatla): 1 saat – 1 saat 15 dəq
- Nəqliyyat növü: Minik avtomobili, tur avtobusu və ya taksi
- Yol şəraiti: İsmayıllıdan Lahıca gedən son 15 km dolama və dar dağ yollarıdır
- Fəsil tövsiyəsi: Yaz – yay – payız (qışda yol buzlu və təhlükəli ola bilər)
- Lahıcda görüləcək yerlər: Misgərlər küçəsi, Lahıc Tarix-Etnoqrafiya Muzeyi, qədim su kəməri, daş döşənmiş küçələr
- Yerli bələdçi xidmətləri: Mövcuddur – əvvəlcədən sifariş tövsiyə olunur
- Yerli suvenir məhsulları: Mis qablar, əl işləri, yun corab və xalçalar

Yeni dağ turizm marşrutlarının yaradılması bir neçə meyara əsaslanmalıdır:

1. Relyef və ekosistem uyumu – Qax rayonunun Əyriçay dərəsi boyunca marşrut, Balakənin Katex meşələri və Qapıçay vadisi, Zaqatalanın Kebeloba–Mazımçay vadisi bu baxımdan xüsusi önəm daşıyır.

2. Mədəni və tarixi obyektlərə çıxış – Dağlıq ərazilərdə yerləşən alban abidələri (Kiş, Qum kəndləri), qədim dağ məbədləri və daş kitabələr turist marağını cəlb edir (Quliyev, 2021).

3. Ekoloji sabitlik – Yeni marşrutlar UNESCO və "Yaşıl Marşrut" konsepsiyasına uyğun olaraq davamlı turizm prinsiplərinə əsaslanmalıdır (UNWTO, 2021).

Pilot Marşrut Təklifləri.

1. Mazımçay – Qamışlı yaylası Zaqatala (Mazımçay kəndi – dağ zirvəsi) 11 km Alpin landşaft, şəlalə
2. Qapıçay – Xəlban yol marşrutu Balakən (Qapıçay – Xəlban kəndləri) 8 km Meşə və dağ dərələri
3. Meydan – Sıxçıqov yaylası Qax (İlisu – Meydan – Sıxçıqov) 14 km Dağ çayları, qədim izlər
4. Kebeloba – Sırt çökəklikləri Zaqatala (Kebeloba – dağ silsiləsi) 10 km Flora-fauna müxtəlifliyi

Bu marşrutlar həm yürüş, həm də veloturizm üçün əlverişli sayılır və mövcud infrastruktur üzərində genişləndirmə tələb edir. Yeni marşrutların yaradılması zamanı aşağıdakı problemlər nəzərə alınmalıdır:

- Dağ yollarının təhlükəsizliyinin təmin olunmaması;
- Təbii mühafizə zonalarında insan fəaliyyəti ilə bağlı pozuntular;
- Peşəkar bələdçi və GPS yönləndirmə xidmətlərinin çatışmazlığı;
- İqlim şəraitinin tez-tez dəyişməsi və mövsümi məhdudiyyətlər (Əliyeva, 2020).

Azərbaycanda mövcud olan turizm turlarında əsas turist marşrutlarından biri kimi, Qaşqaçay – Qumux marşrutu təklif olunur. Qeyd edək ki, Qumux kəndi qədim zamanlardan insanların yaşadığı ərazilərdən biri kimi tanınır. Ən son arxeoloji tədqiqatlar nəticəsində burada eramızdan əvvəl VIII–VII əsrlərə aid yaşayış izləri tapılmışdır. Qumuxa aparan marşrut üzərindəki aşırımdan geniş açılışlı mənzərə

müşahidə olunur – ətraf dağlar və dərələr aydın görünür. Cığırlar kifayət qədər yaxşı görünür və tam şəkildə nişanlanmışdır. Turun müddətini artırmaq istəyənlər üçün əvvəlcə İlisu–Qaşqaçay istiqamətində hərəkət edib, Qumux kəndinə çatdıqdan sonra 7 kilometrlik məsafəni avtomobil və ya piyada keçərək Baş Göynük–Kiş marşrutu ilə birləşmək tövsiyə olunur.

Kiş kəndindən "Marxal Resort & Spa" istirahət kompleksinə keçdikdən sonra, oradan Xan yaylağına yalnız yolsuzluq avtomobilləri ilə qalxmaq mümkündür – bu yol piyada səyahət üçün məhdudlaşdırılıb. Əgər yaylağa piyada çıxmaq niyyətindəsinizsə, Şəki ətrafında yerləşən cığırları peyk xəritələri vasitəsilə müəyyənləşdirmək mümkündür. Lakin bu cığırlar hələ rəsmi şəkildə işarələnməyib və yeni başlayan haykinq həvəskarlarına uyğun deyil. Şəki şəhərindən Orta Vərəzət kəndinə, oradan isə Baş Kəldək kəndinə asan meşəiçi cığırlarla qısa yürüşlər təşkil etmək olar. Bu marşrut boyunca çoxlarının bilmədiyi qədim alban kilsələri – həm Vərəzət, həm də Baş Kəldək kəndlərində – ziyarətçilərə maraqlı mədəni təcrübə bəxş edir.Marşrut üzrə səyahət üçün ən əlverişli dövr maydan sentyabradək olan müddət hesab edilir, çünki bu zaman hava şəraiti və gün işığı daha münasib olur. Bununla belə, ilboyu bu istiqamətdə hərəkət mümkündür. Yağışlı havalardan sonra yollar palçıqlı ola bilər və ümumilikdə cığırlar üzərində çoban alaçıqlarına rast gəlinmir. Nəqliyyat baxımından, Şəkidən Qaşqaçay kəndinə *0066 və ya *5577 nömrəli taksi xidmətləri ilə 12–15 AZN-ə getmək mümkündür. Qax şəhərindən "ALO taksi xidməti" vasitəsilə bu istiqamətə 6–8 AZN qarşılığında çatmaq olar. Həmçinin Qax avtovağzalından Qaşqaçaya gündə üç dəfə – saat 07:30, 13:00 və 18:00-da – hərəkət

edən avtobuslardan istifadə etmək mümkündür (bilet qiyməti 0,70 AZN).



Şəkil 3.1. Qaşqaçay – Qumux marşrutu



Şəkil 3.2. Qaşqaçay – Qumux marşrutu

Təklif olunandigər turlardan biridə İsmayıllı Lahıc turu və arqo turizm marşurutudur. İsmayıllı rayonu Azərbaycanın zəngin tarix-mədəniyyət irsinə malik bölgələrindən biridir. Ərazidə yerləşən Lahıc və Basqal kəndləri öz unikal tarixi-memarlıq siması ilə seçilir və bu səbəbdən müvafiq dövlət qərarları ilə tarix-mədəniyyət qoruqları elan olunmuşdur. Həmin qoruqlarda qorunan abidələr sırasında Basqal kəndində yerləşən XVII əsrə aid məscid və hamam, eləcə də Lahıc kəndindəki Bədöyün, Zəvəro (1791-ci il) və Ağoli məscidləri, Zəvəro bulağı xüsusi əhəmiyyət

daşıyır. Rayonun digər ərazilərində də tarixilik baxımından əhəmiyyətli obyektlər mövcuddur. Məsələn, Xanəgah kəndində yerləşən və VII əsrə aid olduğu ehtimal edilən Qız Qalası, Sulut kəndində yerləşən və müxtəlif əfsanələrlə əlaqələndirilən XVIII əsrə aid Fitdağ qalası bu qəbildəndir.

Girdmançayın sol sahilində, dəniz səviyyəsindən təqribən 1200 metr yüksəklikdə yerləşən Lahıc qəsəbəsi, Azərbaycan Respublikası hökumətinin qərarı ilə tarixi-mədəniyyət qoruğu statusu almışdır. Bu qəsəbə öz tarixi memarlığı və zəngin sənətkarlıq ənənələri ilə tanınır. Əhalisi əsasən misgərlik, dəridən məişət əşyalarının hazırlanması, xalçaçılıq və kənd təsərrüfatı ilə məşğuldur. Sakinlər minillik ənənəyə malik sənət sahələrini yaşatmaqda davam edirlər. Burada XVIII-XIX əsrlərə aid məscid və yaşayış binaları bu günədək qorunub saxlanmışdır. Lahıc həm də turizm baxımından əhəmiyyətli məkan kimi xarici turistlərin diqqət mərkəzindədir. 2011-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin qərarı ilə İsmayıllı rayonu "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan edilmişdir.

Rayon ərazisində yerləşən mühüm abidələrdən biri də Cavanşir qalasıdır. Qafqaz Albaniyası dövründə, Mehranilər sülaləsinin hakimiyyəti zamanı, hökmdar Cavanşirin göstərişi ilə inşa edilən bu qala onun adını daşıyır. İsmayıllı rayonunun Talıstan kəndindən 4 km şimalda, Ağçaçayın sağ sahilində yerləşən bu abidə, inzibati-müdafiə funksiyası daşımışdır. Qala əsas hissə və "içqala"dan ibarətdir. Onun cənub divarlarının qalınlığı 2 metr, hündürlüyü isə 10 metrdən çoxdur. İçqala dağın yüksək nöqtəsində yerləşir və qeyri-düzgün çoxbucaqlı plan quruluşuna malikdir. Şimal hissədə uzunluğu 50 metr, eni 2 metr olan divar çıxıntısı və silindrik bürclə tamamlanan müdafiə strukturu mövcuddur. Sahəsi təxminən 2 hektardır. Burada diametri 8 metrə çatan altı bürc yerləşir. Qalaya Talıstan kəndindən avtomobil yolu ilə, oradan isə piyada və ya atla çatmaq mümkündür.

Cavanşir qalasından təqribən 7 km məsafədə yerləşən və Xanəgah kəndi yaxınlığında yerləşən Qız Qalası İsmayıllı rayonunun ən iri və tanınmış müdafiə xarakterli tarixi abidələrindən biridir. VII əsrə aid olduğu ehtimal edilən bu qala dik dağ zirvəsində, Axox çayının sağ sahilində, sıldırım qayalar və sərt yamaclarla əhatələnmiş ərazidə inşa olunmuşdur. Sahəsi 1,5 hektar olan bu qala İsmayıllı Dövlət

Təbiət Qoruğunun ərazisində yerləşir və yol kənarından 3 km içəridə, sıx meşəlik ərazidə yerləşdiyi üçün daim qaranlıq və sərin atmosferə malikdir. Bu memarlıq kompleksindən bəzi bürclər, müdafiə divarları və terraslar qismən salamat qalmışdır. Əsərin dəqiq dövrlə əlaqələndirilməsi ilə bağlı müxtəlif mənbələr VII və XI-XII əsrləri göstərir. Qalaya getmək üçün öncə eyni adlı istirahət mərkəzinə avtomobillə, daha sonra isə bir kilometr məsafəni piyada qət etmək zəruridir. Yolun müəyyən hissəsində sürətli axan çay piyada keçilməlidir. Bu səbəbdən qalanın yerləşdiyi əraziyə səyahət edərkən, xüsusilə istirahət mərkəzinin heyətindən məsləhət almaq tövsiyə olunur. Qala yaxınlığında yerləşən şəlalə və ətrafdakı sıx meşəlik ərazi ekoturizm və piknik üçün əlverişli şərait yaradır.

Beləliklə, İsmayıllı rayonunun Lahıc, Basqal, Xanəgah, Talıstan və digər yaşayış məntəqələrindəki memarlıq abidələri həm elmi-tarixi baxımdan, həm də turizm və mədəni irsin qorunması baxımından strateji əhəmiyyətə malikdir. Bu abidələrin sistemli şəkildə qorunması, öyrənilməsi və ictimaiyyətə təqdim olunması Azərbaycan mədəni irsinin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır.

Hazırda İsmayıllı rayonu ərazisində turizm sektorunun inkişafı istiqamətində mühüm addımlar atılmış və geniş infrastruktur formalaşdırılmışdır. Belə ki, rayonda ümumilikdə 1085 nəfərlik yerləşdirmə gücünə malik 26 mehmanxana və 23 mehmanxana tipli istirahət kompleksi fəaliyyət göstərməkdədir. Bu istirahət mərkəzlərinin əksəriyyəti müasir xidmətlərlə təchiz olunmuşdur: açıq hovuzlar, tennis və bilyard masaları, biznes mərkəzləri, diskoteka kimi imkanlar turistlərin istifadəsinə verilir. Bu imkanlar, bölgədə həm daxili, həm də xarici turizmin inkişafına mühüm töhfə verir.

Turizm marşrutu çərçivəsində aşağıdakı məkanlara səfər tövsiyə olunur:

1. Lahıc qəsəbəsi:

1980-ci ildən muzey-qoruq statusu almış Lahıcda həmin dövrə məxsus məhəllə məscidləri, qədim su təchizatı sistemi (kürəbənd) və Girdiman qalası kimi memarlıq nümunələri qorunub saxlanılır. Əsrlərdir davam edən sənətkarlıq ənənələri, xüsusilə misgərlik sənəti burada əsas məşğuliyyət sahəsidir. 2015-ci ildə Lahıc misgərlik sənəti UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Lahıc,

həmçinin tarixi Böyük İpək Yolu üzərində yerləşdiyindən, beynəlxalq turistlər üçün xüsusi əhəmiyyət daşıyır. Qeyd edək ki, “Şeş-beş” adlı stolüstü oyununun adı da bu ərazidən qaynaqlanır – “şeş” farsca “altı”, “beş” isə türk mənşəli sözdür. Burada fəaliyyət göstərən sənətkarlar tərəfindən hazırlanmış mis məmulatları tarixi dövrlərdə böyük şöhrət qazanmışdır; məsələn, XVIII əsrdə usta Nəcəfqulunun hazırladığı samovarlar və XIX əsrdə usta Məmməd Qədirin mis qabı yüksək mükafatlara layiq görülmüşdür.

2. Qalacıq kəndi:

Azərbaycan kinematoqrafiyasının klassik nümunələrindən olan “Ögey ana” filmindəki məşhur partlayış səhnəsi bu kəndin ərazisində çəkilmişdir. Partlayış səhnəsi çəkiliş zamanı həqiqi olaraq aparılan yol tikintisi işləri çərçivəsində gerçəkləşmişdir.

3. İvanovka kəndi:

Əvvəllər “Həftəran” adını daşıyan bu kəndin adı XIX əsrdə Rusiyadan köçürülən molokan icmasının təşəbbüsü ilə və polkovnik İvanovun şərəfinə dəyişdirilmişdir. Kəndin əhalisi əsasən molokanlar, ləzgilər və azərbaycanlılardan ibarətdir. Molokanlar Rusiya Pravoslav Kilsəsinin islahatlarını qəbul etmədikləri üçün sürgün olunmuş və köhnə dini ayinləri burada davam etdirmişlər. İvanovka kəndi həmçinin memarlıq baxımından maraqlıdır – burada klassik taxta tikililər, oyma dekorativ elementlərlə bəzədilmiş evlər diqqət çəkir.

4. Bado-Basqal turizm zonası:

Bu ərazidə yerləşən Badoda kükürdlü müalicəvi mineral bulaq turistlər və sağlamlıq turizmi ilə maraqlananlar üçün əlverişlidir. Burada, həmçinin “Yeddi bulaq” adlı ekoloji baxımdan cəlbedici məkana rast gəlinir. Tarixi abidələrə gəlincə, XII-XIII əsrlərə aid Xan qalasının divar qalıqları, Haram qalası və Fit qalası bu ərazinin qədim keçmişindən xəbər verir.

5. Basqal kəndi:

İsmayıllı rayonunun mərkəzindən 56 kilometr məsafədə yerləşən Basqal kəndi Bakıdakı İçərişəhərlə müəyyən memarlıq oxşarlıqları sərgiləyir. Kəndin təmiz və abad mühiti turistlər tərəfindən yüksək qiymətləndirilir. Eyni zamanda, burada

çəkilmiş "Uzaq sahillərdə" (1958) filmi Basqalın mədəni irsinin tanıdılmasına xidmət etmişdir. Kəndin adını daşıyan "Basqalı" musiqi nömrəsi isə bu məkanın mədəni simvoluna çevrilmişdir.

6. Kəlağayı sənəti:

Basqal kəndi həm də kəlağayı sənətinin mərkəzi kimi tanınır. Ən dəyərli kəlağayı nümunələri 6-7 rəngli kompozisiyalarla hazırlanır və bu sənətkarlıq ənənəsi bu gün də yaşadılır. XX əsrin ortalarına qədər kəndin demək olar ki, hər bir evində kəlağayı toxunurdu. Hal-hazırda Basqalda fəaliyyət göstərən İpək Mərkəzi bu sənəti yaşatmaqdadır. Mərkəzdə ipək məmulatlarının hazırlandığı emalatxana və kəlağayı muzeyi fəaliyyət göstərir.



Şəkil 3.3. İsmayıllı –Lahıc turu




Şəkil 3.4. Basqal- Lahic  turu



Şəkil 3.5. İsmayıllı –Lahıc turu

Beləliklə, yeni marşrutların uğurla tətbiqi üçün regional səviyyədə planlaşdırma və icra mexanizmlərinin inteqrasiyası zəruridir. Bununla yanaşı, icma əsaslı turizm

modellərinin tətbiqi, yerli bələdçilərin təlimi, rəqəmsal xəritələşdirmə, marşrutların brend kimi təqdimatı və ekoloji maarifləndirmə tədbirləri prioritet olmalıdır. Azərbaycanın şimal-qərb dağlıq regionu, düzgün idarəçilik şəraitində, Cənubi Qafqazda dağ turizmi üzrə lider istiqamətlərdən birinə çevrilə bilər.

## 3.2. Azərbaycanın şimal-qərb bölgəsində dağ turizminin inkişafında beynəlxalq təcrübənin tətbiqi

Azərbaycanın şimal-qərb bölgəsində dağ turizminin inkişaf etdirilməsi, yalnız yerli resursların səfərbər olunması ilə deyil, eyni zamanda beynəlxalq təcrübənin öyrənilməsi və uyğunlaşdırılması ilə də effektiv nəticələr verə bilər. Dünya üzrə uğurlu dağ turizmi nümunələri – İsveçrə, Avstriya, Gürcüstan, Nepal və Yeni Zelandiya kimi ölkələrdə – bu sahənin sistemli şəkildə planlaşdırılması, təhlükəsizlik standartlarının tətbiqi, ekoloji yanaşmanın qorunması və yerli icmaların iqtisadi cəlbediciliyinin artırılması ilə bağlı zəngin təcrübə formalaşdırıb (UNWTO, 2022).

1. Turizm planlaşdırılması və marşrutların inteqrasiya olunması. Turizm planlaşdırılması və marşrutların inteqrasiyası dağ turizminin davamlı və strateji inkişafının əsas elementlərindən biridir. Beynəlxalq təcrübəyə əsasən, bu proses təkcə fiziki infrastrukturun yaradılması ilə deyil, həm də coğrafi informasiya sistemlərinin (GIS) tətbiqi, marşrutların fərqli turizm növlərinə uyğunlaşdırılması və regional əlaqələndirmə vasitəsilə həyata keçirilir (Stoffel & Grêt-Regamey, 2019).

İsveçrə və Avstriya kimi inkişaf etmiş dağ turizmi ölkələrində dağ marşrutlarının planlaşdırılması müasir texnologiyalar və ekoloji qiymətləndirmə metodları ilə həyata keçirilir. Bu ölkələrdə marşrutlar yalnız turizm axınının yönləndirilməsi üçün deyil, həm də dağ ekosistemlərinin qorunması məqsədilə nəzərdə tutulur. Məsələn, İsveçrədə marşrutlar yüksək dəqiqliklə rəqəmsallaşdırılıb, GPS sistemlərinə inteqrasiya olunub və mobil tətbiqlər vasitəsilə turistlərə real vaxtda təqdim olunur (UNWTO, 2022).

Azərbaycanın şimal-qərb bölgəsində isə bu sahədə əsas problemlərdən biri marşrutların planlaşdırılmasında sistemsizliyin olmasıdır. Məsələn, Zaqatala və Qax rayonlarında bəzi təbii marşrutlar spontan şəkildə yerli bələdçilər tərəfindən müəyyən

edilir və müvafiq nişanlamalar, təhlükəsizlik təlimatları və istirahət məntəqələri ilə təmin olunmur. Bu isə həm turistlərin təcrübəsini məhdudlaşdırır, həm də onların təhlükəsizliyinə risk yaradır.

Marşrutların inteqrasiyası məsələsində regional əlaqələndirmə xüsusilə vacibdir. Dağ turizmi yalnız bir rayonla məhdudlaşmamalı, əksinə, Şəki–Qax–Zaqatala–Balakən oxu boyunca vahid bir dağ turizmi klasteri kimi formalaşdırılmalıdır. Belə inteqrasiya həm logistikanın effektiv təşkilini təmin edər, həm də bölgə daxilində turizm axınının balanslı bölüşdürülməsinə şərait yaradar (DTA, 2023). Bununla yanaşı, mövcud marşrutların UNESCO-nun Dünya İrs Siyahısında yer alan mədəni obyektlərlə (məsələn, Şəki Xan Sarayı) və biosfer qoruqları ilə (Zaqatala və İlisu) əlaqələndirilməsi, turizm məhsulunun dəyərini artırar.

Eyni zamanda, yeni yaradılan marşrutlar beynəlxalq turistlərin gözləntilərinə uyğunlaşdırılmalı, multimedial və interaktiv xəritələrlə təchiz olunmalı, müxtəlif səviyyəli (başlanğıc, orta, peşəkar) yürüşçülər üçün kateqoriyalaşdırılmalıdır. Bu istiqamətdə Gürcüstanın Svaneti və Tusheti bölgələrində həyata keçirilən marşrutlaşdırma modelləri uğurlu nümunələr kimi təqdim olunur. Həmin bölgələrdə marşrutlar 3 dildə – gürcü, ingilis və rus dillərində işarələnmiş, təhlükəsizlik təlimatları və təbiət haqqında məlumatlar isə mobil tətbiqlərə inteqrasiya olunmuşdur (UNDP Georgia, 2020).

Nəhayət, Azərbaycan üçün də bu təcrübənin lokal şəraitə uyğunlaşdırılması vacibdir. Qax rayonunun İlisu, Zaqatalanın Yuxarı Tala və Şəkinin Kiş kəndlərindən keçən dağ marşrutları GIS əsaslı planlaşdırma ilə rəqəmsallaşdırıla və dövlət–özəl sektor tərəfdaşlığı çərçivəsində turizm məhsullarına çevrilə bilər.

2. Yerli icmaların inteqrasiyası və ekoturizm modeli. Yerli icmaların dağ turizmi proseslərinə inteqrasiyası turizmin sosial, iqtisadi və ekoloji baxımdan davamlı inkişafının başlıca şərtidir. Dağlıq ərazilərdə ekoturizm modeli yalnız təbiətin qorunmasına yönəlmir, eyni zamanda yerli əhalinin rifahının yüksəldilməsi və onların mədəni irsinin turizm məhsuluna çevrilməsini də hədəfləyir (Honey, 2008). Şimal-qərb bölgəsində – xüsusilə Şəki, Qax, Zaqatala və Balakən rayonlarında – kənd əhalisinin əsas dolanışıq mənbələri kənd təsərrüfatı və heyvandarlıqdır. Bu

regionlarda turizm fəaliyyətləri əsasən fərdi təşəbbüslərə və ya kiçik miqyaslı ailə turizminə əsaslanır. Lakin yerli icmaların ekoturizm modelinə strukturlaşdırılmış şəkildə inteqrasiyası halında həm turizm məhsullarının keyfiyyəti artar, həm də bölgənin sosial-iqtisadi vəziyyəti müsbət istiqamətdə dəyişə bilər (AzTA, 2023). Ekoturizm modelinə keçid üçün ilk növbədə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərilməlidir:

- İcmalara yönəlik təlim və sertifikasiya proqramları: Yerli bələdçilərin, aşpazların, ev sahiblərinin ekoloji və mədəni məlumatlandırılması üçün təlimlər təşkil olunmalıdır. Məsələn, Nepal və Ekvadorda tətbiq olunan "Community-based Ecotourism" (CBE) modelləri bu baxımdan uğurlu təcrübələr hesab olunur (Scheyvens, 1999).
- Eko-kənd layihələri və yerli mədəniyyətin inteqrasiyası: Azərbaycanın şimal-qərbində yerləşən Kiş, İlisu, Mazımçay və digər dağ kəndləri öz zəngin mədəni irsi və təbii gözəllikləri ilə ekoturizm üçün geniş potensiala malikdir. Bu kəndlərdə qonaq evləri, yerli yeməklər, sənətkarlıq nümunələri və xalq musiqisi turistlərə təqdim oluna bilər.
- Ətraf mühitin qorunması və ekosistem monitorinqi: Ekoturizm modeli yerli icmaların təbiətin mühafizəsində birbaşa iştirakını da nəzərdə tutur. Turist axınının idarə olunması, tullantıların azaldılması və su ehtiyatlarının səmərəli istifadəsi kimi məsələlərdə icmaların bilavasitə iştirakı, həm ətraf mühitin qorunmasına, həm də məsuliyyətli turizm şüurunun formalaşmasına səbəb olur (UNEP, 2020).

Bundan əlavə, regionda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları və bələdiyyələrlə birgə əməkdaşlıq çərçivəsində yerli icmaların turizm klasterlərinə cəlb edilməsi mümkündür. Məsələn, Zaqatalada "Balakən Dağ Marşrutu" adlı pilot layihədə kənd qadınlarının öz evlərini qonaq evinə çevirməsi, yerli məhsullardan istifadə etməklə ekoloji təamların hazırlanması ekoturizmin səmərəli modellərindən biri kimi qiymətləndirilir (AzTA, 2023).

Eyni zamanda, bu cür modellər regionun gənc əhalisinin miqrasiyasını azalda, onların doğma bölgədə işlə təmin olunmasına şərait yarada bilər. Beynəlxalq donorlar

və dövlət proqramları vasitəsilə mikro-kreditlər, startap dəstəkləri və təlim resurslarının bölgələrə yönləndirilməsi də icma əsaslı ekoturizmin inkişafına böyük töhfə verə bilər.

3. Təhlükəsizlik standartları və peşəkar bələdçilik. Dağ turizmi risk amilləri ilə müşayiət olunan turizm formalarından biridir. Bu sahədə fəaliyyətin təhlükəsiz və davamlı şəkildə təşkili üçün beynəlxalq təhlükəsizlik standartlarına uyğunluq, peşəkar bələdçilik xidmətlərinin mövcudluğu və dövlət nəzarət mexanizmlərinin gücləndirilməsi zəruridir (UNWTO, 2022).

3.1. Təhlükəsizlik standartlarının əhəmiyyəti və tətbiqi. Şimal-qərb regionunda — xüsusilə Qax, Şəki, Oğuz və Zaqatala rayonlarının dağlıq ərazilərində turizm fəaliyyətləri əsasən fərdi təşəbbüslərlə həyata keçirilir. Lakin bu fəaliyyətlərdə müasir təhlükəsizlik tələblərinin çox zaman nəzərə alınmaması ciddi risklər doğurur. Məsələn:

- Dağ keçidlərinin, turizm cığırlarının və istirahət məkanlarının marşrutlanmaması;
- Meteoroloji xəbərdarlıqların nəzərə alınmaması;
- Fövqəladə hallar zamanı operativ yardım imkanlarının zəif olması.

Beynəlxalq təcrübədə, xüsusilə İsveçrə, Gürcüstan və Nepal kimi ölkələrdə dağ turizmi fəaliyyətlərinə başlamazdan əvvəl müvafiq təhlükəsizlik təlimatları, rəqəmsal xəritələr, GPS izləmə sistemləri və sığorta protokolları geniş tətbiq olunur (Mountaineering Scotland, 2021). Azərbaycan üçün də bu cür modellərin lokallaşdırılması aktualdır.

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (FHN) və Turizm Dövlət Agentliyi bu sahədə müəyyən təlimat kitabçaları və marşrutların qeydiyyatı mexanizmləri təklif etsə də, bu sistemin regional səviyyədə inteqrasiyası zəifdir (FHN, 2023).

3.2. Peşəkar bələdçilik və kvalifikasiya sistemi. Peşəkar bələdçilik xidmətləri dağ turizminin əsas dayaqlarından biridir. Təcrübəli və sertifikatlı bələdçilər:

- Yüksək riskli dağlıq ərazilərdə turistlərin təhlükəsizliyini təmin edir;
- Yerli təbiət, mədəniyyət və tarix haqqında turizm iştirakçılarına məlumat verir;

- Fövqəladə hallarda ilkin tibbi yardım və yönləndirmə rolunu yerinə yetirir.

Hazırda Azərbaycanda bu sahədə qismən təşəbbüslər olsa da, strukturlaşdırılmış bələdçi təlimi və lisenziyalaşdırma sistemi mövcud deyil. Gürcüstanda tətbiq olunan "Mountain Guide Certification System" və TÜRSAB-ın (Türkiyə) bələdçilik akademiyası bu baxımdan nümunəvi təcrübələr sayılır (TÜRSAB, 2021).

2022-ci ildən etibarən Azərbaycan Turizm Bürosu və Turizm Agentliyi tərəfindən "Bələdçi Platforması" layihəsi çərçivəsində ilkin seminarlar və məlumatlandırma kampaniyaları keçirilsə də, bu proqramların bölgələrə inteqrasiyası məhduddur (AzTA, 2023).

3.3. Təhlükəsizlik və bələdçilik üçün tövsiyələr.Azərbaycanın şimal-qərb regionunda dağ turizminin inkişafında təhlükəsizlik və peşəkar bələdçilik istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi təklif olunur:

- Dağ marşrutlarının GPS və rəqəmsal xəritələrlə inteqrasiyası;
- Bələdçilər üçün milli sertifikasiya sistemi və təlim modullarının yaradılması;
- Fövqəladə hallara cavab verən təcili yardım qruplarının region səviyyəsində təşkili;
- Sığorta xidmətlərinin (xüsusilə qısa müddətli dağ turizmi paketləri üçün) tətbiqi;
- Yerində təhlükəsizlik infrastrukturu: xəbərdarlıq lövhələri, ərazi nişanlanması, mobil rabitə sistemləri.

Bu tədbirlər həm turistlərin rifahını, həm də Azərbaycanın turizm sahəsində reputasiyasını artırmaq baxımından mühüm əhəmiyyət daşıyır.

4. Mövsümilik və alternativ turizm növləri.Avropada dağ turizminin ilboyu fəaliyyətdə qalması üçün müxtəlif alternativ turizm növləri yaradılıb: qışda xizək və snoubord, yayda dağ yürüşləri, veloturlar, paragliding və ekoloji müşahidələr (OECD, 2022). Qəbələdə Tufandağ Qış-Yay Turizm Kompleksi bu modelə uyğun ilkin struktura malikdir. Bu təcrübə Zaqatala və Qax bölgəsində də inkişaf etdirilə bilər, xüsusən də Qalal kəndi və Mazımçay vadisində velotur və yürüş zonalarının salınması ilə.

Azərbaycanın şimal-qərb bölgəsi — xüsusilə Qax, Zaqatala, Balakən, Oğuz və Şəki rayonları — təbii-coğrafi şəraiti, iqlim xüsusiyyətləri və relyefi baxımından müxtəlif növ idman turizmi fəaliyyətlərinin həyata keçirilməsi üçün əlverişli məkandır. Bölgədə yerləşən Böyük Qafqaz dağlarının cənub yamacları, meşəlik ərazilər, dərələr, dağ çayları və yüksək dağ gölləri turizmlə yanaşı, dağ idman növləri, trekkinq, dağ velosipedi, alpinizm, paraplan uçuşları və çay raftinqi üçün geniş potensial yaradır.

Bölgənin təbiəti, xüsusilə İlisu, Qalal, Katex, Sarıbaş və Lahıc kimi ərazilərdə:

- 1500–3000 metr yüksəkliklərdə yerləşən çətin keçilən dağlar,
- Qaranohur, Mingəlçay, Mazımçay və digər çaylar üzrə sürətli axınlar,
- Dağ çəmənlikləri və sıx meşəliklərdə yerləşən ekoloji cığırlar mövcuddur (Əlizadə və b., 2019).

Bu ərazilər marşrutlu idman yürüşləri, orientasiya idmanı, dağ velosipedi yarışları və çoxgünlük yürüş festivalları üçün optimal şərait yaradır. Məsələn, İlisu Dövlət Təbiət Qoruğu yaxınlığında təşkil olunan yürüş marşrutları artıq bəzi yerli turistlər və xarici səyyahlar arasında populyarlıq qazanmışdır (AzTA, 2023).

Bölgədə bəzi yerli QHT-lər və turizm operatorları tərəfindən idman yönümlü ekoturizm tədbirləri keçirilir. Məsələn:

- "Şəki Trekking Festivalı" (2022) – müxtəlif yaş kateqoriyası üzrə yürüş marşrutları təşkil olunmuşdur.
- Zaqatala velotur marşrutları — dağ və təbiət turlarında peşəkar velosipedçilərin iştirakı ilə mövsümi yarışlar keçirilməkdədir.

Bununla yanaşı, bölgədə paraplan uçuşları üçün potensial nöqtələr — Qaxın Sarıbaş yaylası və Zaqatalanın dağ silsilələri müəyyən olunmuş, lakin infrastruktur baxımından hələ tam inkişaf etdirilməmişdir (Məmmədov, 2021).

İsveçrə, Avstriya və Gürcüstan kimi ölkələrin dağlıq turizm bölgələrində tətbiq olunan dağ-idman kompleksləri, rəqəmsal cığır şəbəkələri və bələdçi dəstək sistemləri Azərbaycanın şimal-qərbində də tətbiq oluna bilər. Bu xüsusda, turizm və idman sahəsində vahid strategiyanın formalaşdırılması, turizm marşrutlarının idman bacarıqları ilə inteqrasiyası və təhlükəsizlik təminatları vacibdir (UNWTO, 2022).

5. Marketinq və brendinq təcrübələri. Beynəlxalq səviyyədə uğurlu dağ turizmi məkanları öz brendlərini "eko", "sakitlik", "mədəni mirasla təmas" kimi dəyərlər üzərində qururlar (Ritchie & Crouch, 2003). Azərbaycanın dağlıq regionları üçün "Şəki-Zaqatala: mədəniyyət və təbiətin qovuşduğu məkan" kimi brend mesajların yaradılması, beynəlxalq sərgilərdə bu bölgənin təqdimatı və sosial mediada aktiv reklamı məqsədəuyğundur.

Beləliklə, Azərbaycanın şimal-qərb bölgəsində dağ turizminin inkişafında beynəlxalq təcrübənin tətbiqi bu sahədə sistemli yanaşmanın formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. İsveçrə, Avstriya və Gürcüstan kimi ölkələrin uğurlu modelləri – marşrut şəbəkələrinin rəqəmsallaşdırılması, təhlükəsizlik standartlarının tətbiqi, yerli icmaların turizmə inteqrasiyası və dağ bələdçiliyi məktəblərinin yaradılması – Azərbaycanın dağ turizminə uyğunlaşdırılaraq tətbiq oluna bilər. Bu yanaşma həm ekoturizmin davamlı inkişafını təmin edər, həm də regionun sosial-iqtisadi inkişafına töhfə verər.

## NƏTİCƏ

Azərbaycanın şimal-qərb bölgəsi – Şəki, Qax, Zaqatala, Balakən və Oğuz rayonlarını əhatə edən ərazi – əlverişli coğrafi mövqeyi, zəngin təbii-landşaft ehtiyatları, ekoloji təmiz mühiti və qədim mədəni irsi ilə dağ turizminin inkişafı üçün yüksək potensiala malikdir. Son illər ərzində bu bölgədə müəyyən infrastruktur layihələri həyata keçirilsə də, hələ də mövcud imkanların yalnız kiçik bir hissəsi istifadə olunur. Beynəlxalq təcrübənin öyrənilməsi və lokal resurslara uyğunlaşdırılması, dağ turizminin sistemli şəkildə inkişaf etdirilməsini zəruri edir. Əldə olunan təhlillər göstərir ki, kompleks planlaşdırma və strateji yanaşma tətbiq olunarsa, bölgə həm daxili, həm də beynəlxalq turizm bazarında rəqabətqabiliyyətli məkana çevrilə bilər.

## Təkliflər

1. Yeni dağ turizm marşrutlarının formalaşdırılması: İlisu, Qum, Mamırlı, Qalal və Sarıbaş kimi dağlıq kəndləri birləşdirən tematik və ekoloji marşrutların yaradılması ilə turist axını artırıla bilər.

2. İnfrastrukturun təkmilləşdirilməsi: Dağ yollarının asfaltlanması, istiqamətləndirici lövhələrin quraşdırılması, təcili yardım və təhlükəsizlik xidmətlərinin əlçatanlığı artırılmalıdır.

3. Peşəkar bələdçilik və kadr hazırlığı: Turizm ixtisasları üzrə yerli təhsil müəssisələrində dağ bələdçiliyi və ekoturizm üzrə proqramlar tətbiq edilməli, beynəlxalq sertifikatlaşdırma sistemlərinə uyğun təlimlər təşkil olunmalıdır.

4. Yerli icmaların aktiv iştirakı: Dağ turizmi təsərrüfatı və xidmət sahələri ilə məşğul olan yerli əhali üçün vergi güzəştləri və mikro-maliyyə dəstəkləri təmin edilməlidir.

5. Rəqəmsallaşma və beynəlxalq tanıtım: Bölgənin dağ turizmi marşrutları rəqəmsal xəritələrə salınmalı, onlayn platformalarda tanıdılmalı və beynəlxalq sərgilərdə təbliğ olunmalıdır.

6. Ekoloji və davamlılıq prinsipləri: Turizm fəaliyyəti zamanı təbiətin qorunması əsas prinsip kimi qəbul olunmalı, xüsusi mühafizə olunan ərazilərdə gəzinti qaydaları tənzimlənməlidir.

7. Beynəlxalq əməkdaşlıq: Gürcüstan, Türkiyə və İsveçrə kimi ölkələrlə təcrübə mübadiləsi və ortaq layihələr həyata keçirilməli, sərhədyanı dağ turizmi modelləri tətbiq olunmalıdır.

Azərbaycanın şimal-qərb bölgəsi dağ turizminin inkişafı üçün əlverişli təbii-coğrafi şəraitə, mədəni irsə və ekoloji resurslara malik olmaqla ölkənin turizm strategiyasında mühüm yer tutur. Son illər ərzində bu sahədə müəyyən irəliləyişlər əldə olunsa da, mövcud potensialın tam reallaşdırılması üçün kompleks yanaşma və uzunmüddətli strateji planlaşdırma zəruridir. Beynəlxalq təcrübənin öyrənilərək yerli şəraitə uyğun tətbiqi, infrastrukturun müasirləşdirilməsi, yeni marşrutların yaradılması, yerli icmaların prosesə inteqrasiyası və təhlükəsizlik, bələdçilik kimi

vacib amillərin gücləndirilməsi bölgənin turizm mərkəzinə çevrilməsinə real zəmin yaradır.

Bütün bunlar, bir tərəfdən, regionun sosial-iqtisadi inkişafına təkan verəcək, digər tərəfdən isə Azərbaycanı beynəlxalq dağ turizmi xəritəsində rəqabətədavamlı turizm destinasiyası kimi möhkəmləndirəcəkdir. Bu məqsədlə elmi əsaslara söykənən siyasət və idarəetmə modellərinin tətbiqi, dövlət və özəl sektorun koordinasiyalı fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. Abadov M.K. "Azərbaycanın turizmi və onun inkişaf problemləri", "ŞərqQərb", Bakı, 2014, 248 s..
2. AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN). Zaqatala-Balakən və İlisu Dövlət Qoruqları üzrə məlumat bülleteni, 2023
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Turizm göstəriciləri üzrə statistik bülleten. Bakı, 2024
4. Azərbaycan Turizm Bürosu. (2024). Regional turizm strategiyası – Şəki-Zaqatala bölgəsi. https://azerbaijan.travel
5. Azərbaycan Turizm Assosiasiyası (AzTA), 2023. "Şimal-qərb bölgəsində icma əsaslı turizmin inkişaf meyilləri" – hesabat.
6. Azərbaycan Turizm Assosiasiyası (AzTA), 2023. "Bələdçi platforması və regionda tətbiq imkanları" adlı icmal hesabat.
7. AzTA (Azərbaycan Turizm Assosiasiyası), 2023. "Təbiət və idman turizminin sintezi: bölgə üzrə icmal hesabat".
8. Bilalov B.Ə., Gülalıyev Ç.G. "Turizmin Əsasları", Bakı, "QHT", 2015, 496 s.
9. Cəlilov, H. "Azərbaycanın dağlıq ərazilərində kənd turizmi potensialı". İqtisadiyyat və Turizm, 2022, №2, s. 88–95.
10. Dövlət Turizm Agentliyi (DTA). (2023). "Regionlar üzrə turizm infrastrukturu hesabatı". www.tourism.gov.az
11. Dövlət Turizm Agentliyi (DTA). Regional turizm marşrutlarının xəritələşdirilməsi üzrə hesabat. Bakı,2023

12. Dövlət Turizm Agentliyi (DTA). Azərbaycanın regional turizm potensialının inkişafı strategiyası. Bakı, DTA,2023
13. Əliyev, M. Azərbaycanın turizm coğrafiyası. Bakı: ADPU nəşriyyatı,2022.
14. Əlirzayev Ə.Q. "Turizm iqtisadiyyatı və idarə edilməsi", "İqtisad Universiteti nəşriyyatı", Bakı, 2011, 494 s.
15. Əlirzayev Ə.Q. "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" dərslik. Bakı 2010
16. Əlirzayev Ə.Q., Aslanova S.İ. "Turizmin inkişafının sosial-iqtisadi problemləri". Bakı, 2006
17. Əliyeva Ü.Z. Azərbaycanın dağ rayonlarinin turizm xidmətinin dayanıqlı inkişafını formalaşdıran amillər// Bazar iqtisadiyyatının inkişaf istiqamətlər, AUDİT 2022, 4 (38), s. 90-100.
18. Əliyev, A. Azərbaycanın dağ turizmi: imkanlar və çağırışlar. Bakı: Turizm Nəşriyyatı,2020
19. Əliyev M. Etnoqrafik resursların turizmdə istifadəsi: Zaqatala nümunəsi. Bakı: BDU Nəşriyyatı,2022
20. Əlizadə, E. və b. Azərbaycanın təbii turizm ehtiyatları. Bakı: Elm və Təhsil Nəşriyyatı,2019
21. Əliyeva, A. Dağ turizminin ekoloji aspektləri: Zaqatala nümunəsində. Ekoturizm və Davamlı İnkişaf, 2020, 3(1), s.15–23.
22. Fövqəladə Hallar Nazirliyi (FHN), 2023. Təhlükəsizlik qaydaları və təlimat materialları, www.fhn.gov.az
23. Hüseynova Ş.H. "Turizmin əsasları", Bakı, "Mütərqim", 2014, 374 s.
24. Qasımova, N. "Ekoturizm və dağ kəndlərinin rolu: İlisu və Car kəndlərinin təhlili". Turizm və Mədəni İrs Elmi Jurnalı, 2021, №1, s. 65–72.
25. Qasımova, N. Şimal-qərb bölgəsində kənd turizmi və dayanıqlı inkişaf. Gəncə: GDU Nəşriyyatı,2022
26. Qasımova, N. "Şəki-Zaqatala iqtisadi rayonunun turizm imkanları", Coğrafiya və Turizm Elmi Jurnalı, 2022,№2, s. 56–63.

27. Quliyev, R. Şəki-Zaqatala bölgəsinin mədəni-tarixi turizm potensialı. Azərbaycan Turizm Jurnalı, 2021, 9(2), 43–52.
28. Quliyev V. "Şəki-Zaqatala iqtisadi rayonunda kənd turizminin inkişaf imkanları". Azərbaycan Turizm Araşdırmaları Jurnalı,2022, №1, s. 45-56.
29. Məmmədov, R. "Dağ turizminin inkişafında təbii-coğrafi faktorların rolu: Şəki-Zaqatala nümunəsində". Azərbaycan Coğrafiyası Jurnalı, 2022,№3, s. 41–49.
30. Məmmədov, R. Turizm coğrafiyası. Bakı: Elm və Təhsil Nəşriyyatı,2023
31. Məmmədov E.Q. "Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri". Bakı, 2013
32. Məmmədov, R. Azərbaycanın turizm potensialı və inkişaf perspektivləri. Bakı: Elm və Təhsil,2023.
33. Məmmədov R. Azərbaycanın dağlıq bölgələrinin turizm potensialı. Bakı: Coğrafiya Nəşriyyatı,2023
34. Məmmədov, R. "Dağ turizmi və idman yönümlü marşrutların inkişaf potensialı". Turizm və Sosial İqtisadiyyat jurnalı, 2021, 3(2), s. 45-52.
35. Məmmədova V.H. Azərbaycanın sərhədyanı bölgələrində məşğulluğun və regionla inkişafın təmin edilməsində dağ turizminin rolu (Şəki-Zaqatala turizm bölgəsində) // Elmi Tədqiqat Beynəlxalq online elmi jurnal, 2022, cild 2, say 5. s.17-21
36. Soltanova H. "Azərbaycan Respublikasında Turizm və onun inkişafı", "AzTu", Bakı, 2015, 475 s.
37. Şəki-Zaqatala Regional Turizm İdarəsi (RTİ). Rəqəmlərlə Turizm: Şimal-qərb bölgəsi üzrə statistika və marşrutlar. Bakı,2024
38. Şəki-Zaqatala Regional Turizm İdarəsi. 2023-cü il üzrə turizm fəaliyyəti statistikası.Bakı, 2024
39. Zəngiyeva M.R.Zaqatala və Balakən rayonlarında ekoturizm potensialının reallaşmasında akademik təşəbbüstlərin rolu. 2025
40. TÜRSAB, 2021. Rehberlik Akademisi Faaliyet Raporu.

41. Honey, M. Ecotourism and Sustainable Development: Who Owns Paradise? Island Press.2008
42. ICAR. (2020). International Commission for Alpine Rescue Guidelines. www.alpine-rescue.org
43. Mountaineering Scotland, 2021. Mountain Safety Guidelines and Best Practices.
44. Ritchie, B., & Crouch, G. The Competitive Destination: A Sustainable Tourism Perspective. CABI Publishing.2003.
45. Stoffel, M., & Grêt-Regamey, A. "Sustainable Mountain Tourism Planning in the Swiss Alps." Journal of Mountain Research and Development, 2019, 39(2),p. 87–95.
46. Scheyvens, R.  Ecotourism and the Empowerment of Local Communities. Tourism Management, 1999, 20(2), p.245–249.
47. OECD. (2022). Sustainable Mountain Tourism Development: International Practices and Policy Models. Paris: OECD Publishing.
48. UNESCO. (2019). Caucasus Mountain Biodiversity and Cultural Routes. https://whc.unesco.org
49. UNWTO. (2021). Sustainable Tourism and Protected Areas. United Nations World Tourism Organization.
50. UNDP (2023). Community-Based Tourism Initiatives in the North-West Regions of Azerbaijan. BMT İnkişaf Proqramı hesabatı.
51. UN Environment Programme (2020). Sustainable Tourism: A Pathway to Development.
52. UNWTO (2022). Tourism and Rural Development: Building Inclusive and Sustainable Communities.
53. UN World Tourism Organization (UNWTO), 2022. Tourism for Inclusive Growth: Guidelines for Mountain Destinations.
54. UNDP Nepal. (2021). Community-Based Tourism for Sustainable Mountain Livelihoods. Katmandu: UNDP Country Office.

55. UNWTO. (2022). Tourism and Mountains: New Challenges, New Opportunities. Madrid: World Tourism Organization.
56. UNWTO (2022). Tourism and Sports: Mountain Destinations and Physical Activity Integration. www.unwto.org
57. https://www.stat.gov.az/source/tourism/